RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 140 (8733) CÜMƏ AXŞAMI, 8 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Bütün yollar Qarabağa aparır

## “Zəfər” yolunun asfaltlanmasına başlanıldı



**44 günlük Vətən müharibəsindəki Qələbənin nəticəsi olaraq işğaldan azad olunan ərazilərimiz indi böyük tikinti və quruculuq meydanını xatırladır.**

Prezident İlham Əliyevin sərəncamlarına, göstəriş və tapşırıqlarına əsasən, hazırda Qarabağda bir neçə istiqamətdə avtomobil və dəmir yolları layihələri icra olunur, hava limanı inşa olunur. O cümlədən işğaldan azad olunan ərazilərimizin yeni enerji infrastrukturu yaradılır.

### Genişmiqyaslı tikinti işləri davam edir

Qarabağda həyata keçirilən layihələrdən biri də “Zəfər” yoludur. Bu yol şəhidlərimizin qanı ilə yazdığı şanlı tarixin şahididir. Müzəffər ordumuz məhz həmin yolla Şuşa şəhərinə daxil olduğundan bu yolun həm də, rəmzi mənası, mənəvi dəyəri, xüsusi önəmi var.

*Ardı 3-cü səh.*



# Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır.

Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1.Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3.Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5.Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7.Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9.Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10.Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11.Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12.Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14.Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

2.Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2021-ci il*

# Prezident qayğısı

## Şəhid ailələri, yaralanmış qazi və müharibə əlilləri bütün xidmətləri eyni məkandan daha çevik və rahat əldə edəcəklər



**Erməni faşizmi üzərində qazandığımız möhtəşəm Zəfər xalqımız, dövlətimiz üçün nə qədər qiymətli və sonsuz iftixar doğuran hadisədirsə, şəhid ailələrinə və qazilərimizə yaxından dəstək göstərilməsi də bir o qədər mühüm önəm kəsb edən vəzifədir.**

Ona görə də Vətən uğrunda canından keçmiş insanların yaxınlarına, qazilərə xüsusi qayğı göstərilməsi, onların hərtərəfli dəstəklə təminatı sahəsində ölkəmizdə aparılan siyasət mənəvi məsələ kimi öndədir.

### Vahid əlaqələndirmə mərkəzi

Prezident İlham Əliyevin iyunun 25-də imzaladığı fərmanla şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması da bu siyasətin uğurlu davamıdır.

Bu gün Azərbaycan şəhid ailələri və müharibə veteranlarının sosial müdafiəsi sahəsində ən nümunəvi təcrübəyə malik ölkədir. Onların sosial ödənişlərlə təminatı və bu ödənişlərin mütəmadi olaraq artırılması, şəhid ailələri və müharibə əlillərinin mənzillə, avtomobillə, eləcə də digər sosial müdafiə və aktiv məşğulluq proqramları ilə əhatə olunması və həmin proqramların ildən-ilə genişləndirilməsi, bu kateqoriyalardan olan vətəndaşlara güzəşt və imtiyazların tətbiqi də bunu göstərir.

Vahid əlaqələndirmə mərkəzlərinin yaradılması dövlətin sosial sahədə əsas məqsədlərindən biri kimi, həmin kateqoriyalardan olan vətəndaşlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə xidmətlərin “bir pəncərə”dən, operativ və şəffaflıq, vətəndaş məmnunluğu, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstərilməsinə xidmət edir.

*Ardı 3-cü səh.*

**◆ Jurnalist araşdırması**

# Sağlamlaşdırılmasına ehtiyac duyulan sağlamlıq turizmi

## Azərbaycanın bu sahədəki unikal imkanlarından yetərincə istifadə edilmir

**Qubanın Yerfi kəndindəki Vərov adlanan müalicəvi bulaq suyu demək olar ki, artıq quruyub, su onun gözündən damcı-damcı gəlir. Bu bulaq bir vaxtlar ətraf kəndlərin müalicə üçün üz tutduğu məkan olub.**



Kənd sakinləri onu mədə-bağırsaq xəstəlikləri, revmatizm ağrıları zamanı, bəzi yaraların sağalması üçün istifadə ediblər. Bulağın suyu təmiz olduğundan həm də içiblər. Ancaq indi ətrafı çirkab içində olan bu möcüzəvi suyu ara-sıra yalnız mal-qara içə bilir...

### İstifadəsiz qalan sərvət

Kənd sakinləri bu bulağın suyunun qurumasının səbəbini baxımsızlıqla əlaqələndirirlər. Ölkəmizdəki mineral su ehtiyatları ilə bağlı real vəziyyəti yalnız bu fakt göstərmir.

Belə su ehtiyatlarının olduğu ərazilərdə infrastrukturun, müalicəvi mərkəzlərin olmaması, həmin yerlə bağlı lazımi təbliğatın aparılmaması insanların bu məkanlar barədə ya məlumatsız olmasına, ya da getdikləri zaman ixtisaslaşmış tibbi xidmətlər ala bilməməsinə səbəb olur.

*Ardı 6-cı səh.*




**Futbol üzrə XVI Avropa çempionatı**



# İtaliya çempionluğun bir addımlığındadır



**Yarımfinalın ilk oyununda Londonda ardıcıl 13-cü qələbəsini qazanan İtaliya ilə son 13 oyunda məğlubiyyət bilməyən İspaniya qarşılaşdı.**

Ümumiyyətlə, sonuncu matça kimi məğlubiyyətsiz seriyasını 32 oyuna çatdıran italyanlar yollarına davam etməklə bu göstəricidə 35 oyunla (2007-2009-cu illər) rekordçu olan ispanları keçməyə çalışacaqdılar.

*Ardı 7-ci səh.*

**Yarımfinal**

**İtaliya - İspaniya - 1:1 (Penaltilər seriyası - 4:2)**
**Qollar:** Kyeza, 60 (1:0), Morata, 80 (1:1)
**Baş hakim:** Feliks Brıx (Almaniya)
*London, “Uembli” stadionu*

# Şəmkir və Tovuz rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şəmkir və Tovuz rayonlarının əhalisi 105153 nəfər olan 17 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2021-ci il*

***Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli Sərəncamına Əlavə***

### Şəmkir və Tovuz rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Şəmkir | 10 | Düyərli kəndi (2 quyu) | 9502 |
| | | | İrmaşlı kəndi | 5216 |
| | | | Könüllü kəndi | 5073 |
| | | | Sarıtəpə kəndi | 2289 |
| | | | Yeni Həyat kəndi | 4340 |
| | | | Yeni yol kəndi | 1625 |
| | | | Zəyəm qəsəbəsi (3 quyu) | 8749 |
| 2. | Tovuz | 10 | Alakol kəndi | 4265 |
| | | | Aşağı Quşçu kəndi | 11340 |
| | | | Bozalqanlı kəndi | 4593 |
| | | | Cəlilli kəndi | 2212 |
| | | | Dondar Quşçu kəndi | 4356 |
| | | | Düz Qırıqlı kəndi | 7190 |
| | | | Əyyublu kəndi | 12327 |
| | | | İbrahimhacılı kəndi | 4527 |
| | | | Köhnəqala kəndi | 2079 |
| | | | Qovlar şəhəri | 15470 |
| Cəmi: | 20 | 17 | | 105 153 |

# Baş nazir Əli Əsədov Rusiya hökumətinin sədri Mixail Mişustinə başsağlığı verib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası hökumətinin sədri Mixail Mişustinə başsağlığı məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Kamçatkada sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərindən kədərləndiyini bildirib.

Məktubda Rusiya hökumətinin sədrinə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verilib.

# Qazaxıstan şirkətləri azad edilmiş ərazilərimizin bərpasında iştirakda maraqlıdır

İqtisadiyyat naziri Mikayıl Cabbarov Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkərimov ilə görüşüb.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə M.Cabbarov ölkəmizin Qazaxıstanla əlaqələrinin yüksək səviyyədə olduğunu, müxtəlif iqtisadi sahələrdə əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb, qarşılıqlı iqtisadi münasibətlərin daha da möhkəmləndiriləcəyinə əminliyini ifadə edib. Nazir bildirib ki, hazırda tərəflər arasında iqtisadi əməkdaşlığın inkişafını ehtiva edən bir sıra sənədlər müzakirə olunur, qarşılıqlı ticarətin genişləndirilməsi istiqamətində iş aparılır. 2021-ci ilin mayında Qazaxıstanın Nursultan şəhərində açılmış Azərbaycan Ticarət Evi bu sahədə əlverişli mexanizmdir. Bununla yanaşı, ixrac missiyalarının və işgüzar görüşlərin davam etdirilməsi ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətlidir.

M.Cabbarov qeyd edib ki, ölkələrimiz arasında səmərəli investisiya əməkdaşlığı həyata keçirilir. Qazaxıstandan Azərbaycanın qeyri-neft sektoruna 94 milyon dollar, Azərbaycan tərəfindən isə Qazaxıstanın qeyri-neft sektoruna 203 milyon dollardan çox sərmayə qoyulub. Azərbaycanda sənaye, aqrar, ticarət, xidmət, tikinti və nəqliyyat sahələri üzrə Qazaxıstanın 145 şirkəti qeydiyyatdan keçib.

Görüşdə ticarət, tranzit-logistika, sənaye, kənd təsərrüfatı, turizm və s. sahələrdə tərəfdaşlığın gücləndirilməsi üçün böyük potensial qeyd edilib, işğaldan azad edilmiş ərazilərimizin inkişafı konsepsiyası, aparılan bərpa işləri barədə məlumat verilib, Qazaxıstan şirkətlərinin yenidənqurma işlərində iştirak imkanları diqqətə çatdırılıb.

Tərəflər iqtisadi-ticarət əlaqələri, ölkəmizin işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə əməkdaşlıq və digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# Azərbaycan dövləti hər zaman vətəndaşının, hərbçisinin yanındadır

İyulun 7-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Tərtər rayonundan olan Vətən müharibəsi iştirakçılarının bir qismi ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Adil Əliyev ötən il qazanılmış tarixi şanlı Zəfər münasibətilə görüş iştirakçılarını təbrik edib. Milli Məclis Sədrinin müavini diqqətə çatdırıb ki, şanlı tariximizin ən böyük hadisələrindən biri olan Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz uzun illər işğal altında qalmış əzəli və əbədi torpaqlarımızı düşmən tapdağından həmişəlik azad edib. Qazanılmış bu tarixi Qələbə hər bir azərbaycanlının qürur mənbəyidir. Bu Qələbə Ulu Öndər Heydər Əliyevin dövründə ordu quruculuğu, peşəkar hərbi qulluqçuların hazırlanması, idmanda kütləviliyin təmin edilməsi, gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması istiqamətində aparılan müdrik siyasətin dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində mümkün olub. Xalqımızın bir yumruq kimi birləşməsi, istər ön cəbhədə, istərsə də arxa cəbhədə görülən işlər tarixi zəfərimizi təmin edib.

Sədr müavini bildirib ki, müharibədən sonrakı dövrdə aparılan abadlıq və quruculuq işləri öz bəhrəsini verir və Qarabağımıza yeni nəfəs gəlməkdədir. Şuşa şəhəri uzun illərdən sonra yenidən festivallara, mədəni tədbirlərə evsahibliyi etməyə başlayıb, infrastruktur yenidən qurulur, hava limanları tikilir, habelə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları icra olunur.

Adil Əliyev diqqətə çatdırıb ki, şəhid ailələri və qazilərimizin qayğıları hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Dövlət tərəfindən onların çətinliklərinin həlli istiqamətində lazımi addımlar atılır, bu məqsədlə "YAŞAT" Fondu təsis edilib. Eyni zamanda Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Vətən müharibəsinin iştirakçıları və şəhid ailələrinin sosial problemlərini qısa müddət ərzində həll etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının strukturlarında Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbələri yaradılıb.

Görüşdə iştirak edən Vətən müharibəsi qəhrəmanı Azər Abdullazadə, Azərbaycan Vətən Müharibəsi Veteranları Təşkilatının Tərtər Regional Bölməsinin rəhbəri Vidadi Məmmədov, Azərbaycanın Milli Qəhrəmanı Elman Hüseynovun övladı Emin Hüseynli səmimi qəbula görə təşəkkürlərini bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsi nəticəsində qazanılmış Qələbədən və xalqımızın doğma dədə-baba yurduna qovuşmasından məmnunluqlarını ifadə ediblər. Qeyd olunub ki, qazanılmış bu şanlı Qələbədən bütün dünya azərbaycanlıları qürur duyur.

Tərtər rayonundan olan Vətən müharibəsi iştirakçıları ölkə rəhbərliyi tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

Onlara Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

Görüş iştirakçıları Bakı şəhərinə səfərləri çərçivəsində Şəhidlər xiyabanını və Hərbi Qənimətlər Parkını da ziyarət ediblər.

# Azərbaycanla Gürcüstan arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub



Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyulun 7-də Gürcüstan parlamentinin sədri Kaxa Kuçava ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkənin parlamentləri arasındakı əlaqələr, mədəniyyət, turizm və humanitar sahələrdə əməkdaşlıq məsələləri diqqət mərkəzində olub.

Kaxa Kuçava Azərbaycanın mədəniyyət nazirinin Gürcüstana səfərini, xüsusilə də keçirilən görüşləri və müzakirə olunan məsələləri yüksək qiymətləndirib. Bildirib ki, bu cür səfərlər iki dost və qardaş ölkə olan Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir.

Nazir Anar Kərimov Azərbaycanın Gürcüstanla münasibətlərin bütün sahələrdə inkişafına böyük önəm verdiyini qeyd edib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişafının vacibliyi qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanın mədəniyyət naziri Gürcüstan Dövlət Muzeyində olub

Tbilisidə səfərdə olan Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyulun 7-də Tbilisinin mərkəzindəki Gürcüstan Dövlət Muzeyində olub.

AZƏRTAC xəbər verir ki, muzeyin baş direktoru David Lordkipanidze muzeyin tarixi, burada saxlanılan eksponatlar barədə Azərbaycanın mədəniyyət nazirinə ətraflı məlumat verib.

Bildirilib ki, ilk dəfə 1853-ci ildə "Qafqaz muzeyi" kimi fəaliyyət göstərən muzeydə çox sayda mədəni eksponat saxlanılır.



1905-ci ildə tikintisinə başlanılan müasir muzey kompleksinin tikintisi xeyli müddət müxtəlif səbəblər üzündən saxlanılıb. 1926-cı ildə tikintisi başa çatan Gürcüstan Milli Muzeyinin nəzdində 14 muzey və kompleks fəaliyyət göstərir. Bu gün akademik Simon Canaşiya adını daşıyan Gürcüstan Dövlət Muzeyində Azərbaycan mədəniyyətini, incəsənətini, qədim tarixini əks etdirən eksponatlar da nümayiş etdirilir.

Nazir Anar Kərimov muzeylə tanış olub, Azərbaycan və Gürcüstanın dövlət və milli muzeyləri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd edib.

Bildirib ki, birgə əməkdaşlıq sayəsində qədim Qafqaz xalqlarının mədəniyyətini, incəsənətini dünyaya çatdırmaq olar.

Görüşlərdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Serbiyalı nazirin başçılıq etdiyi nümayəndə heyəti Heydər Əliyev Mərkəzində və 4 saylı DOST Mərkəzində





Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər naziri Darija Kisiç Tepavçeviçin başçılıq etdiyi nümayəndə heyəti Heydər Əliyev Mərkəzində olub.

Onlar Mərkəzdə Ulu Öndər Heydər Əliyevin irsi, Azərbaycanın tarixi və mədəniyyətini, incəsənətini əks etdirən eksponatlar və virtual sərgilərlə tanış olublar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyəti 4 saylı DOST Mərkəzində əhaliyə müasir əsaslarla, şəffaf və operativ şəkildə, vətəndaş məmnunluğu prinsipi ilə göstərilən xidmətlərlə maraqlanıblar. Qonaqlara Azərbaycanın DOST Konsepsiyası, DOST mərkəzlərinin dövlət sosial xidmətlər sektoruna gətirdiyi əsaslı keyfiyyət dəyişikliyi və innovativ üstünlüklər barədə məlumat verilib.

# Serbiyadan gələn nümayəndə heyəti ölkəmizin reabilitasiya sistemi ilə tanış olub





Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər naziri Darija Kisiç Tepavçeviçin başçılıq etdiyi nümayəndə heyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 1 saylı Uşaq Reabilitasiya Müəssisəsində və Şağan Reabilitasiya Pansionatında olub.

Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019-2021-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. Bu il isə daha üç müəssisənin - Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsinin, Qəbələ və Şəmkirdə Uşaq Reabilitasiya Mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, dövlət başçısının iştirakı ilə bu il fevralın 25-də açılışı olan Şağan Reabilitasiya Pansionatında müasir tələblərə uyğun şərait yaradılıb. 128 palatadan ibarət olan, 250 çarpayılıq pansionat ildə 5 minə yaxın əlilliyi olan şəxsə səmərəli təsirə malik fizioterapevtik müalicə prosedurları tətbiq edilməklə reabilitasiya xidmətləri göstərməyə imkan verir. 1 saylı Uşaq Reabilitasiya Müəssisəsi də ən müasir tələblərə uyğun qurulub. Burada sağlamlıq imkanları məhdud uşaqların diaqnostikası, onların reabilitasiya potensialının müəyyənləşdirilməsi, sosial, tədris-peşə reabilitasiyası istiqamətində işlər aparılır.

Nümayəndə heyəti hər iki müəssisədə yaradılan şəraitlə, əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara göstərilən reabilitasiya xidmətləri, tətbiq olunan müalicə prosedurları ilə tanış olub.






QARABAĞ dirçəliş yolundadır






# Prezident qayğısı

## Şəhid ailələri, yaralanmış qazi və müharibə əlilləri bütün xidmətləri eyni məkandan daha çevik və rahat əldə edəcəklər



*Əvvəli 1-ci səh.*

### Bütün xidmətlər "bir pəncərə" sistemi üzrə təşkil olunacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi, Müdafiə və Səhiyyə nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, yerli icra hakimiyyəti orqanları, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti tərəfindən şəhid ailələri üzvləri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslər üçün nəzərdə tutulan - ümumilikdə 30-a yaxın istiqamət üzrə xidmətlər artıq eyni mərkəzdən təqdim olunacaq.

Şəhid və şəhid ailəsi statusunun əldə olunması üçün arayışların verilməsi, müharibə veteranı adının və vəsiqəsinin alınması, orden və medallarla təltif olunma, xəsarət (yaralanma, travma, kontuziya) alınması barədə, habelə əlilliyin müəyyən edilməsi üçün tələb olunan müvafiq arayışlar, sığorta ödənişləri ilə bağlı tələb olunan sənədlərin verilməsi üçün müraciətlərin qəbulu Müdafiə Nazirliyinin xidmətlərinə aid olacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tibbi sosial ekspertiza və reabilitasiya üzrə xidmətlər, o cümlədən əlilliyin müəyyən edilməsi, reabilitasiya vasitələri ilə təminat, məşğulluq sahəsində göstərilən xidmətlər, əmək pensiyası və sosial müavinətlər üzrə müraciətlərin qəbulu həyata keçiriləcək.

Həmçinin Prezident təqaüdləri üzrə müraciətlər qəbul ediləcək. Əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial məişət xidmətlərinin göstərilməsi, sanatoriya-kurort putyovkaları ilə təminat da bu nazirliyin göstərəcəyi xidmətlər sırasındadır.

Səhiyyə Nazirliyinin xidməti isə tabeliyində olan tibb müəssisələrində tibbi yardım göstərilməsi ilə bağlı müraciətlərin qəbulu olacaq.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətkeçmə haqqında arayış, çağırışçılara müddətli həqiqi hərbi xidməti hansı hərbi hissədə keçdikləri barədə məlumat, müharibə veteranlarına və şəhid ailələrinə müvafiq arayışlar, o cümlədən hərbi qeydiyyatda olma barədə sənədlər veriləcək.

Yerli icra hakimiyyəti orqanları üzrə xidmətlər də əhatəlidir. Bu orqanların xidmətlərində yaşayış sahəsinə ehtiyacla bağlı uçota alınmağa dair müraciətlər qəbul ediləcək. Həmçinin yerli icra hakimiyyəti orqanları onların ərazisində yaşayan şəhid ailələrinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə ailə tərkibini təsdiq edən və digər arayışlar verəcək. Şəhid adının əbədiləşdirməsi, o cümlədən prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi, eləcə də onların adlarının dəyişdirilməsi barədə müraciətləri də qəbul edəcək.

Məkrəzdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin xidmətləri də mövcud olacaq. Burada agentliyin tabeliyində olan tibb müəssisələrində səhiyyə xidmətləri ilə bağlı müraciətlərin qəbulu, immunoprofilaktikaya dair məlumat və tibbi arayışların elektron reyestrindən məlumatların verilməsi xidmətləri olacaq.

Mərkəzdə şəhid statusu verilmiş şəxsin vərəsələrinə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə, həmçinin hərbi xidməti vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar xəsarət alan hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsi ilə bağlı müraciətlərin qəbulu da həyata keçiriləcək.

### Xidmətlər "Çağrı mərkəzi" vasitəsilə və səyyar formada həyata keçiriləcək

Beləliklə, vətəndaşlar artıq bu xidmətlərdən ötrü ayrı-ayrılıqda müxtəlif qurumlara deyil, yalnız bir məkana müraciət edə biləcəklər. Vahid məkandan göstəriləcək bu xidmətlər üzrə fəaliyyətin əlaqələndirilməsini, habelə müraciətlərin icra vəziyyətinin monitorinqi üzrə əlaqələndiricilik funksiyasını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirəcək. Qeyd olunan dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək üçün Əlaqələndirmə Komissiyası da yaradılacaq.

Şəhid ailələrinə, qazi və müharibə əlillərinə operativ və şəffaf, vətəndaş məmnunluğu, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında xidmətlərin təşkili ilə bağlı keyfiyyətcə yeni modelin tətbiq məkanı DOST mərkəzləri olacaq. Xatırladaq ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST mərkəzləri 132 istiqamət üzrə dövlət sosial xidmətlərinin "bir pəncərə"dən operativ, şəffaf və müasir, innovativ əsasda təqdim edilməsini ehtiva edən uğurlu təcrübəni ortaya qoyub.

Vahid əlaqələndirmə mərkəzlərində xidmətlərin bir-biri ilə qarşılıqlı əlaqədə, informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçirilməsi nəzərdə tutulur. Bununla bağlı olaraq xidmət göstərəcək dövlət orqanlarının informasiya sistemləri arasında əlaqələndirmə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçiriləcək və üç ay ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müvafiq dəyişikliklər ediləcək.

Vahid əlaqələndirmə mərkəzlərinin spesifik üstünlüyünün və müvafiq qruplara xüsusi həssaslıqla yanaşılmasının göstəricilərindən biri də burada birbaşa xidmətlə yanaşı, "Çağrı mərkəzi" vasitəsilə və səyyar formada xidmətlərin göstərilməsi olacaq. Vətəndaş mərkəzə gəlmədən "Çağrı mərkəzi" vasitəsilə xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta biləcək. Sağlamlıq vəziyyəti məhdud olanlar mərkəzlərə gələ bilmədikləri halda "səyyar formada xidmətlərdən faydalana biləcəklər.

Azərbaycanda vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində daim xüsusi tədbirlər həyata keçirilir. Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən qayğı da bunun tərkib hissəsidir və xüsusi razılıqla qarşılanır.

Prezident İlham Əliyevin imzaladığı sərəncam və fərmanlar bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir. Müharibə əlillərinin, veteranların və şəhid ailələrinin sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsinin, həmçinin müharibə əlillərinə və şəhidlərin ailələrinə xüsusi göstərilən diqqətin analoqu yoxdur. Bu baxımdan vahid əlaqələndirmə mərkəzlərinin yaradılması ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Bütün yollar Qarabağa aparır

## "Zəfər" yolunun asfaltlanmasına başlanıldı














*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin tapşırıq və sərəncamına əsasən, Şuşanın düşməndən azad edilməsinin rəmzi olan "Zəfər" yolunun Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən inşası davam etdirilir. Ötən il noyabr ayının 16-da təməli qoyulmuş yol cəmi 2 ay ərzində genişləndirilib. Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olunub.

Dövlət başçısının tapşırığına əsasən, uzunluğu 101 kilometr olan "Zəfər" yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla, 2 hərəkət zolaqlı olmaqla, ikinci texniki dərəcəyə uyğun inşa edilir. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə "Zəfər" yolu Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri icra edilir. "Zəfər" yoluna cəlb edilmiş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi və bununla asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilməsi işləri artıq tamamlanıb.

"Zəfər" yolunun ilk 6 kilometrlik hissəsində layihəyə uyğun olaraq yeni yol yatağının inşası, yolun profilə salınması işləri həyata keçirilib və yeni asfalt-beton örtüyünün alt layı çəkilib. Yolun 34-51-ci kilometrlik hissəsində torpaq işləri, 42-44-cü kilometrlik hissədə isə torpaq və asfalt-beton işləri başa çatdırılıb.

51-76-cı kilometrlik hissəsində isə qazma işləri tamamlanıb, yolboyu əks dolğu və kipləşdirmə işləri görülür. Bəzi hissələrdə yol əsasının alt layının tikintisinə də başlanılıb və paralel olaraq asfaltlanma işləri icra olunur. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yolun bəzi çətin relyefə malik qayalıq ərazidən keçən hissələrində layihə eninin alınması üçün dağların partladılması üsulu ilə yeni yol yatağı inşa edilir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə dairəvi boru və düzbucaqlı su keçidləri, həmçinin zəruri olan yerlərdə 3 yeni avtomobil körpüsünün inşası da davam etdirilir. Körpülərin uzunluğu 33, 99 və 75 metr olmaqla, yolun 0.6-cı, 26-cı və 57-ci kilometrlik hissələri layihələndirilib. Bununla da bu avtomobil yolu ilə rahat gediş-gəliş təmin olunacaq. Artıq layihənin 52-ci kilometrliyində, Böyük Tağlar ərazisində yeni körpünün inşa dayaqları qurulub. Tikintinin qısa müddət ərzində icra edilməsini təmin etmək məqsədilə ərazidə yeni düşərgə inşa edilib. Düşərgədə asfalt-beton zavodu, maşın-mexanizmlərin saxlanılması və xidməti üçün xüsusi ərazi, həmçinin işçilər üçün hər bir şəraiti olan ofis, yeməkxana və istirahət otaqları yaradılıb.

### Yolun sentyabr ayına istifadəyə verilməsi planlaşdırılır

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı" MMC və "7 nömrəli Magistral Yolların İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkəmizdə indiyədək bir neçə layihəni uğurla tamamlamış Türkiyənin "KOLİN" İnşaat Turizm San. və Tic. Anonim Şirkəti və "Azvirt" MMC birgə icra edir. Tikinti işləri "İnşaat norma və qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Qeyd edilən proseslərin həyata keçirilməsi ilə cari ilin sentyabr ayınadək yolun tam olaraq 2 hərəkət zolağı enində asfaltlanaraq istifadəyə verilməsi planlaşdırılır.

İşğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən "Zəfər" yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək. Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**Terror xislətli Ermənistan həm 30 ilə yaxın işğal dövründə, həm də Vətən müharibəsi gedişində torpaqlarımıza yüz minlərlə mina basdırıb. Bu gün piyada və tank əleyhinə minalar işğaldan azad edilmiş torpaqlarda əsas problem olsa da, Azərbaycan Prezidentinin qətiyyəti və uğurlu diplomatiyası nəticəsində Ermənistan onların basdırıldığı yerlərin xəritələrini Azərbaycana verməyə məcbur edilir. Ağdamdan sonra Füzuli və Zəngilan rayonları üzrə də minalanmış ərazilərin xəritələri Azərbaycana təhvil verildi.**



# Böyük Zəfərin diplomatik davamı

### Ardıcıl diplomatik nailiyyətlər strateji hədəflərimizə çatmağa imkan verir

***Siyavuş NOVRUZOV,***
*Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- Torpaqlarını işğaldan azad edərək öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edən Azərbaycan dövləti postkonflikt dövründə də qətiyyətli mövqeyini davam etdirir və mühüm diplomatik nailiyyətlər qazanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu diplomatiya sayəsində ölkəmizin milli maraqları təmin olunur, yeni mərhələdə nəzərdə tutulan hədəflərə çatmağa nail olunur.

Hazırda Azərbaycan ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın tam icrası, sərhədlərin delimitasiyası, regionda kommunikasiyaların bərpası, sülh və təhlükəsizliyin təmin olunması istiqamətində prinsipial yanaşma ortaya qoyur. Ölkəmiz minalanmış ərazilərin xəritələrinin verilməsi ilə bağlı ardıcıl mövqe sərgiləyir. Yeri gəlmişkən, Ağdamdan sonra Füzuli və Zəngilan rayonları ərazisində mina xəritələrinin əldə edilməsi Azərbaycan dövlətinin növbəti strateji nailiyyətidir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev yüksək diplomatik məharət nümayiş etdirərək Azərbaycanın bu istiqamətdə davamlı uğurlar qazanmasını təmin edir.

Əlbəttə, minalanmış ərazilərin xəritələrinin alınması bir çox cəhətdən müstəsna əhəmiyyətə malikdir. Birincisi, xəritələrin əldə edilməsi insan itkisinin qarşısının alınması baxımından olduqca önəmlidir. Buna görə də on minlərlə vətəndaşımızın, eləcə də minatəmizləyənlərin həyatı təhlükədən xilas ediləcək. İkincisi, işğaldan azad olunmuş ərazilərimizdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə zəruri infrastrukturun yaradılması və bərpa işləri üzrə mühüm addımlar atılır, əhəmiyyətli layihələr reallaşdırılır. Təbii ki, minalanmış ərazilərin xəritələrinin alınması ilə işğaldan azad edilmiş ərazilərimizdə abadlıq, bərpa və yenidənqurma işləri daha intensiv xarakter alacaq. Bu da Böyük Qayıdışı, daha dəqiq desək, soydaşlarımızın öz yurd-yerlərinə qovuşması prosesini sürətləndirəcək. Üçüncüsü, Ağdamdan sonra ən böyük infrastruktur layihələrinin Füzulidə reallaşdırılması nəzərdə tutulur. Füzulinin strateji önəmini, bölgədə bütün yol-nəqliyyat infrastrukturunun bu ərazidən keçməsini nəzərə alsaq, minalanmış ərazilərin xəritələrinin alınmasının necə böyük əhəmiyyət kəsb etdiyini bir daha anlayarıq.

Beləliklə, postmüharibə dövründə əldə olunan diplomatik nailiyyətlər Azərbaycan dövlətinin strateji hədəflərinə çatmağa imkan verir. Reallıqlar onu deməyə əsas verir ki, prinsipial mövqeyini davamlı sərgiləyən, öz şərtlərini diktə edən qalib Azərbaycan dövləti Böyük Qayıdışı ən yüksək səviyyədə təmin etmək və işğaldan azad olunmuş əraziləri cənnətə çevirmək iqtidarındadır.

### Azərbaycanın beynəlxalq nüfuzunun növbəti təsdiqi

***Fazil MUSTAFA,***
*Milli Məclisin deputatı,*
*Böyük Qurtuluş Partiyasının sədri:*

- Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə təqribən 92 min minaya dair xəritələri iyulun 3-də Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan tərəfinə təqdim edib. Ağdamdan sonra Füzuli və Zəngilan ərazisində mina xəritələrinin əldə edilməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, Azərbaycan diplomatiyasının növbəti uğurudur.

Füzuli və Zəngilanda işğal dövründə basdırılmış təqribən 92 min mina xəritəsinin ermənilərdən alınması Prezident İlham Əliyevin israrla və qətiyyətlə Ermənistan qarşısında qaldırdığı bütün məsələlərin bundan sonra da həll ediləcəyinə bir işarədir. Mina xəritələrinin Ermənistandan alınması Azərbaycan dövlətinin nüfuzu ilə bağlı məsələdir. Çünki bu gün Azərbaycan qalib ölkə, regionda söz sahibidir və bölgədə baş verən proseslər onun diktəsi ilə həyata keçirilir. Müharibə bitən gündən biz bu məsələni beynəlxalq səviyyədə daim qaldırdıq və bu da öz bəhrəsini verdi. Mina xəritələrinin Ermənistandan alınması böyük diplomatik uğurdur. Hesab edirəm ki, bunun ardınca digər hədəflərimizə, o cümlədən Zəngilan dəhlizinin açılmasına da çatacağıq.

Xəritələrin növbəti partiyasının verilməsi Azərbaycanın gələcəyi üçün olduqca önəmli hadisədir. Bu eyni zamanda Ermənistanın müəyyən dərəcədə inad savaşından uzaqlaşmaq və məsələlərə yeni formada yanaşmaq istəyinin bir işarəsidir. Azərbaycan bu xəritələri əldə edəndən sonra ərazilərin təmizlənməsini daha çevik və sürətlə həyata keçirəcək. Ona görə də bu istiqamətdə işlərin davam etdirilməsi olduqca vacibdir. Əminik ki, bütün bunlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Qarabağa Böyük Qayıdış hərəkatını da sürətləndirəcək.

### Ermənistanın müharibə cinayətləri beynəlxalq hüquqi qiymətini almalıdır

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Bu günlərdə azad edilmiş ərazilərimizlə bağlı növbəti mühüm hərbi və diplomatik uğura şahidlik etdik. Vətən müharibəsində darmadağın edilən Ermənistan Ağdamdan sonra Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyadalar əleyhinə 92 min minaya dair xəritələri də Azərbaycana verdi.

Hərbi əməliyyatlar başa çatdıqdan sonra mina xəritələrinin Azərbaycanın verilməsi ilə bağlı çoxsaylı çağırışlar etsək də, Ermənistan hər vəchlə bundan imtina edirdi. Lakin son iki ayda mina xəritələrinin Azərbaycana verilməsi göstərir ki, Prezident İlham Əliyevin Ermənistanı buna məcbur etmək üçün yürütdüyü prinsipial və məqsədyönlü siyasəti öz uğurlu nəticəsini verir. Eyni zamanda mina xəritələrinin verilməsi dolayısı ilə təsdiq edir ki, Ermənistanın bölgədəki yeni reallıqlarla barışmaqdan başqa yolu yoxdur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ötən ilin oktyabr ayından, hələ müharibənin davam etdiyi vaxtdan yenidənqurma işlərinə start verilib. Artıq Ağdam şəhərinin təməli qoyulub, Zəngilanda "ağıllı kənd" layihələrinə başlanılıb. Mina xəritələrinin əldə edilməsi isə on minlərlə vətəndaşımızın həyatını təhlükədən xilas edəcək, tikinti və yenidənqurma layihələrinin icrasını, bütövlükdə Qarabağın dirçəlişini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunan bütün torpaqlarımız tezliklə yenidən qurulacaq, doğma Qarabağ tarixi şöhrətini bərpa edəcək. Amma Ermənistanın 30 ilə yaxın dövrdə Azərbaycan torpaqlarında həyata keçirdiyi müharibə cinayətlərini də unuda bilmərik və bu, beynəlxalq müstəvidə hüquqi-siyasi qiymətini almalıdır. Ona görə də hər birimizin qarşısında duran vacib missiyalardan biri də minaların basdırılması kimi müharibə cinayəti də daxil olmaqla, Ermənistanın işğal müddətində Azərbaycan ərazilərində törətdiyi vandallığın dolğun şəkildə dünya ictimaiyyətinə çatdırılmasına nail olmaqdır.

Bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondunun həyata keçirdiyi "Karabakh.Center" layihəsi çox əhəmiyyətli platformadır.

Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlarda həyata keçirdiyi vandallıq aktları beynəlxalq təşkilatların faktaraşdırıcı missiyalarının hedabatlarında da öz təsdiqini tapmışdı. 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağda ermənilərin törətdiyi dağıntıların miqyasının necə böyük olduğunu, yüzlərlə yaşayış məntəqəsinin və minlərlə tikilinin vandallar tərəfindən yer üzündən demək olar ki, tamamilə silindiyinin şahidinə çevrildik. Ermənistanın Azərbaycana vurduğu zərər yalnız maddi obyektlərlə, tarixi abidələrlə və memarlıq inciləri ilə məhdudlaşmır. Təbii sərvətlərimiz də amansızcasına istismar olunub, yaşı əsrlərə söykənən ağaclar kəsilib, çaylarımız məqsədyönlü şəkildə kimyəvi maddələrlə çirkləndirilib. Nəticədə regionun ekologiyasına böyük zərər vurulub.

Ermənistan təbii ki, törətdiyi cinayətlərə görə cavab verəcək. "Karabakh.Center" internet resursu da artıq başa çatmış münaqişənin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi, beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb. Bu internet resursunda toplanan çoxsaylı materiallar konkret faktlar əsasında xalqımızın Qarabağdakı maddi-mədəni irsinə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır.

İndiyədək Mehriban xanım Əliyevanın, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsləri ilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində çoxsaylı uğurlu layihələr həyata keçirilib. Bütün bunların nəticəsidir ki, Xocalı soyqırımını tanıyan ölkələrin sayı ildən-ilə artır. Belə layihələrin davamı olaraq yaradılan "Karabakh.Center" internet platforması da Ermənistanın işğal dövründəki vandallığının və müharibə cinayətlərinin, Azərbaycanın üzləşdiyi ədalətsizliklərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasında müstəsna rol oynayacaq.

### Qətiyyətli, prinsipial və məqsədyönlü siyasətin uğurlu nəticəsi

***Səbinə XASAYEVA,***
*Milli Məclisin deputatı:*

- Bütün müharibələr torpaqla bağlıdır. Ermənistanın Azərbaycandan ərazi iddiası da elan edilmədən başlayan müharibəyə səbəb oldu. Bu ölkə Azərbaycanın 20 faiz ərazisini işğal etdi. Nə BMT Təhlükəsizlik Şurasının müvafiq qərarları, nə də ATƏT-in Minsk qrupuna daxill olan dövlətlərin siyasi təsirləri, nüfuzu Ermənistanı işğalçılıq mövqeyindən çəkindirə bilmədi. Ermənistan bütün vasitələrlə sülh danışıqlarından yayınmağa, mövcud status-kvonu saxlamağa cəhd göstərdi, hətta Azərbaycandan əlavə torpaqlar işğal etmək istədi. Bu məqsədlə irimiqyaslı təxribatlar törətdi.

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində dedi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur..."

Ordu hissələrimiz düşmənin genişmiqyaslı hücumunun qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başladı, bu əməliyyat Vətən müharibəsi kimi davam etdirildi.

Azərbaycan Ordusu düşmənin quraşdırdığı, illərlə genişləndirdiyi, möhkəmləndirdiyi müdafiə sədlərini darmadağın etdi, döyüşə-döyüşə kəndlərimizi, şəhərlərimizi işğaldan azad etdi. Noyabrın 8-də Şuşa şəhərinin işğaldan azad edildiyi gün Zəfər günü kimi tarixləşdi.

İşğaldan azad edilmiş ərazilərdə kəndlər, qəsəbələr, şəhərlər yenidən qurulacaq. Ancaq bu ərazilər minalardan və partlamamış sursatlardan tamamilə təmizlənməlidir. Yeni yaşayış üçün şərait yaradılmalıdır.

İşğaldan azad olunmuş ərazilərdə minalardan və partlamamış sursatlardan təmizləmə işlərini Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin, Müdafiə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin nümayəndələri yerinə yetirirlər. Olduqca əhəmiyyətli, məsuliyyətli bu iş, müəyyən mənada, Vətən müharibəsində qazanılmış Zəfərin davamıdır. Döyüşçülərimizin missiyasını Zəfərdən sonra minatəmizləyənlər, bu sahə üzrə ixtisaslaşmış qurumlar davam etdirirlər.

Prezident İlham Əliyev aprelin 20-də Hacıqabul rayonunda səfərdə olanda jurnalistin ona verdiyi suallardan birinə cavabında dedi: "İndiki mərhələdə orada müxtəlif istiqamətlər üzrə işlər görülür, minalardan təmizləmə prosesi gedir. Burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Sadəcə olaraq, bu xəritələri verməmək Ermənistanın növbəti hərbi cinayətidir. Müharibə başa çatandan sonra mina xəritələri verilmədiyi üçün 100-dən çox ancaq mülki vətəndaş yaralanıb və həlak olub. Bu istiqamətdə işlər davam etdiriləcək. Yeni avadanlıq alınır, Minatəmizləmə agentliyinin ştat vahidlərinin artırılması ilə bağlı sərəncam verilib. Çalışacağıq bütün güclərimizi maksimum səfərbər edək ki, minatəmizləmə işləri sürətlə getsin. Eyni zamanda həm Türkiyədən, həm Rusiyadan bu sahədə kömək göstərən hərbçilər də bu işlərlə məşğuldurlar. Mənim göstərişimlə Azərbaycan Müdafiə Nazirliyində bir neçə istehkamçı tabor yaradılıb ki, onlar da bu işlərdə fəal iştirak edirlər və bu günə qədər ən böyük sahəni məhz Müdafiə nazirliyi təmizləyib".

Göründüyü kimi, düşmən minalanmış ərazilərin təmizlənməsi üçün müvafiq xəritəni vermək istəmirdi. Niyə? Məğlubiyyət onun təkcə hərbi potensialını, döyüş imkanlarını deyil, həm də siyasi nüfuzunu da zəiflətdi. Ermənilər Azərbaycana bu və ya digər səviyyədə təsiretmə imkanı kimi minalanmış ərazilərin xəritəsini verməkdən imtina edirdilər.

Ötən ay Kəlbəcərdə baş verən hadisə - 3 nəfərin (ikisi jurnalist) həlak olması Ermənistanın niyyətinin nədən ibarət olduğunu aydınlaşdırır. Azərbaycanın Baş Prokurorluğu BMT, Avropa Şurası da daxil olmaqla beynəlxalq təşkilatlara, o cümlədən Amnesty International və Human Rights Watch insan haqları qruplarına müraciət edərək Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazilərini minalamaqla humanitar normaları və prinsipləri pozmaqda günahlandırdı.

44 günlük Vətən müharibəsində düşməni darmadağın edən Azərbaycan Ordusunun qazandığı Zəfəri müvafiq təşkilatların, güc strukturlarının əməkdaşları davam etdirməkdədir. Onlar "gizlədilmiş ölümlərlə" böyük vətəndaşlıq məsuliyyəti ilə mübarizə aparırlar...

Vətən müharibəsində düşmənin onlarca hərbi qulluqçusu, döyüşlərdə iştirak edən mülki vətəndaşı müxtəlif vəziyyətlərdə əsir alınmışdı. İyunun 12-də 15 nəfər erməni əsiri işğaldan azad edilmiş Ağdam rayonunun ərazisində minalanmış sahələrin xəritəsi ilə dəyişdirildi.

Bu sahəyə yaxşı bələd olan hərbi ekspertlərə görə, Ermənistan kimi işğalçı bir dövlət məğlubiyyətdən sonra da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dediyi kimi, kapitulyasiya aktını imzaladıqdan sonra da açıq düşmənçiliyini davam etdirmək istəyir. Hərbi gücü, iqtisadiyyatı darmadağın olmuş, xarici siyasəti nüfuzdan düşmüş Ermənistan indi nəyə, yaxud kimə ümidlidir?

"Qılınc və qalxan" romanında belə bir məqam var; almanların arasında SSRİ üçün işləyən İohan Vays (əslində, Aleksandr Belov) almanları çaşdırmaq üçün rus tankçısının planşetinə real olmayan minalı sahələrin xəritəsini yerləşdirir. Bu, sonrakı əməliyyatlarda, Sovet ordusu hissələrinin mühasirə şəraitindən çıxmasında olduqca mühüm əhəmiyyət kəsdb edir. Ermənilərin belə bir taktikadan istifadə edəcəyini güman etmək olarmı? Onlara necə inanasan? Ekspertlərin dediyi kimi, "təmiz" sahələri minalı, minalı sahələrin "təmiz" göstərilməsi yüzlərlə insanın ölümünə səbəb ola bilər. Amma o da məlumdur ki, 97 min minanın zərərsizləşdirilməsi böyük proses olsa da, Vətən müharibəsini Zəfərlə tamamlayan Azərbaycan bu problemi də böyük dəqiqliklə, böyük məharətlə yerinə yetirəcəkdir. Nəzərə almaq lazımdır ki, həm də mütəxəssislərin dediyi kimi, "böyük hərbi əməliyyatlar getdiyi vaxtda hər şeyi xəritəyə daxil etmək mümkün olmur". Bu amilə də nəzər yetirmək olduqca vacibdir.

Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə mina partlayışında 24 nəfər həlak olub, 85 nəfər ağır dərəcəli bədən xəsarəti alıb. Bunu dünya dövlətləri də bilir, müvafiq beynəlxalq qurumlar da.

Təbii ki, müharibə bəzən atəşin, döyüşlərin kəsilməsi ilə başa çatmır. Bu, işğalçı dövlətin işğala meyilliliyindən, əsası olmayan gümanlara ümidlənməsindən və s. asılıdır. Ermənistan məğlubiyyət acısını belə xülyaların xumarlığında yaşamaqdadır...

ANAMA-nın mütəxəssisləri işğaldan azad edilmiş ərazilərin minalardan tamamilə təmizlənməsinə illər lazım gələcəyini bildirirlər. Əhali kəndlərə, ev-eşiyinə qayıdacaq. Ancaq mal-qaranın örüş yerləri də, otlaqlar da, əkin yerləri də, meşə və dağ əraziləri də minalardan təmizlənməlidir. Bunu aydınlığı ilə dərk edən əhali bu istiqamətdə də dövlətin yaxın köməkçisi olduğunu təsdiqləyəcək. Vətən müahribəsində olduğu kimi...

### Mina xəritələrinin verilməsi infrastruktur işlərinin gedişinə müsbət təsir göstərəcək

***Tamam CƏFƏROVA,***
*Milli Məclisin deputatı:*

- İyulun 3-də Ermənistan işğal zamanı Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə təqribən 92 min minanın xəritələrini Azərbaycana verdi. Ağdam rayonundan sonra Füzuli və Zəngilanda minalanmış ərazilərin xəritələrinin alınması Prezident İlham Əliyevin uzaqgörən xarici siyasətinin və diplomatiyamızın növbəti uğuru kimi dəyərləndirilməlidir.

Mina xəritələrinin təqdim olunması məskunlaşma prosesinin proqnozlaşdırıldığından daha qısa müddətə reallaşacağına imkan verəcək. Hazırda bərpa və yenidənqurma işləri üçün ən ciddi əngəllərdən biri məhz işğal dövründə həmin ərazilərdə ermənilər tərəfindən kifayət qədər çox sayda minaların basdırılmasıdır. Xəritələrin təqdim edilməsi ərazilərin minalardan təmizlənməsini sürətləndirməklə yanaşı, infrastruktur işlərinin gedişinə də müsbət təsir göstərəcək. Bu, məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı prosesinə və infrastruktur layihələrinin reallaşmasına təkan verəcək.

Minaların xəritəsinin Azərbaycana verilməsi onların aşkarlanması üçün sərf olunan xərclərin azalmasına da gətirib çıxaracaq. Ermənistan bir müddət əvvəl 15 əsir qarşılığında Ağdamın minalanmış ərazilərinin xəritələrini Azərbaycana vermişdi. Füzuli və Zəngilanda 92 min mina ilə bağlı xəritələrin əldə olunması həmin uğurun davamıdır.

Hazırda Ağdamdan sonra ən böyük infrastruktur layihələri Füzuli rayonunda həyata keçirilir. Burada yeni hava limanı, dəmir yolu xətləri və avtomobil yolları inşa olunur. Bu baxımdan Füzuli xüsusi strateji əhəmiyyət kəsb edir. Xəritələrin əldə olunması bu layihələrin daha tez zamanda icra olunmasına böyük töhfə verəcək.

***"Azərbaycan"***

## Ali Attestasiya Komissiyası və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin birgə layihəsinin təqdimatı keçirilib

İyulun 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) və Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin "Azərbaycanda təhsilin doktorantura səviyyəsində keyfiyyət təminatı və elmi müəssisələrin akkreditasiya prosesinin gücləndirilməsi" birgə layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev elmi müəssisə və təşkilatların akkreditasiyası işinin təşkili haqqında danışıb. O bildirib ki, son dövrlərdə iqlim dəyişikliyi, iqtisadi böhranlar, pandemiya kimi qlobal geosiyasi problemlər fonunda dünya misilsiz dəyişikliklərlə üz-üzə qalıb. Bununla yanaşı, süni intellekt və sintetik biologiya sahəsində yeniliklər də daxil olmaqla, texnoloji dəyişikliyin sürətli tempi yeni yaranan texnologiyalara nəzarəti getdikcə daha da mürəkkəbləşdirir: "Qeyd edilən məsələlər elm sahəsində həyata keçirilən dövlət siyasəti üçün həm problem və çətinlikləri, həm də imkanları üzə çıxarır. Sürətli dəyişiklik və yüksək qeyri-müəyyənlik şəraitində elm sahəsinin inkişafı məlumatlara, təhlilə və eyni zamanda birgə fəaliyyət və əməkdaşlığa əsaslanan düzgün qərarların verilməsindən birbaşa asılıdır. COVID-19 böhranı ciddi sarsıntılarla müşayiət edilsə də, ümumilikdə elm və innovasiya cəmiyyətinin görünməmiş səfərbərliyinə səbəb oldu. Dövlət institutları və təşkilatları, özəl fondlar və xeyriyyə cəmiyyətləri, səhiyyə sənayesi qısa müddətdə milyardlarla dollar dəyərində yeni tədqiqat təşəbbüsləri irəli sürdülər. Bu gün tərəddüdsüz deyə bilərik ki, ölkəmizin və dünyanın üzləşəcəyi çətinliklərlə yeganə mübarizə strategiyası elmdir. Məhz alimlərin mütəşəkkil səyi nəticəsində virus və yoluxma haqqında daha dəqiq anlayış təmin edilərək çox qısa müddət ərzində peyvənd hazırlanması mümkün oldu. Onu da qeyd etməliyik ki, rəqəmsal texnologiyalar COVID-19-un təsirini azaldaraq iqtisadiyyatın və cəmiyyətin böyük hissəsinin fəaliyyətinin davam etməsini təmin etdi. Hazırkı pandemiya qarşıdakı böhranlara hazır olmaq və çevik qərarlar vermək üçün elm sahəsinin əhəmiyyətini daha çox önə çıxardı".

Famil Mustafayev vurğulayıb ki, 44 günlük Vətən müharibəsində qələbəmiz nəticəsində ortaya çıxan yeni reallıqlar, ölkəmizin yeni inkişaf mərhələsinə keçməsi üçün imkanların səmərəli istifadəsi ilə bağlı çağırışlar respublikamızda elmi tədqiqata, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığına xüsusi yanaşmanı zəruri edir. Digər tərəfdən, pandemiya ölkəmizdə də elm sahəsində mövcud olan həm güclü, həm də zəif tərəfləri üzə çıxardı. COVID-19-un təsirləri hələ də davam edir və biz artıq müəyyən nəticələr çıxara, təhlillər apara, eləcə də gələcək üçün düzgün strategiyanın formalaşdırılmasını müzakirə edə bilərik. Ölkəmizdə elmin inkişafını təmin etmək üçün beş istiqamətdə - yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr hazırlığı, elmi müəssisə və təşkilatlarda müasir infrastrukturun qurulması, elmin maliyyələşdirilməsi, elmi-tədqiqat işlərinin müasir tələblər səviyyəsində aparılması və elmi müəssisə və təşkilatların idarəedilməsinin müasir tələblərə uyğun təşkil edilməsi paralel və əlaqəli fəaliyyəti zəruri hesab edirik.

Ali Attestasiya Komissiyasının səlahiyyətləri çərçivəsində elmi-pedaqoji kadr hazırlığında keyfiyyətin təmin edilməsi üçün son dövrdə görülən işlərdən danışan Famil Mustafayev deyib: "Görülən işlər və bu sahədə aparılan islahatlar çərçivəsində, həm elmin təşviq edilməsi, həm də bu sahədə şəffaflığın və obyektivliyin təmin olunması və ən əsası ölkəmizdə yeni nəsil peşəkar tədqiqatçıların formalaşdırılması prinsipləri üstünlük təşkil edir. Hazırda ölkəmizdə 104 elmi müəssisə və təşkilat fəaliyyət göstərir. Onlardan 9-u fizika-riyaziyyat, 19-u texnika, 7-si Yer, 15-i kimya və biologiya, 11-i aqrar, 12-si tibb və 31-i humanitar və ictimai elmlər üzrə fəaliyyət göstərən müəssisələrdir. 2018-2021-ci illər üzrə elmi dərəcələrin təqdim olunması ilə bağlı statistikaya nəzər salsaq görərik ki, bu dövr ərzində 1098 iddiaçıya fəlsəfə doktoru, 183 iddiaçıya elmlər doktoru elmi dərəcəsi verilib". 2021-ci ilin mart-iyun ayları ərzində 248 (onlardan filologiya elmləri üzrə - 50, tibb elmləri üzrə - 35, iqtisad elmləri üzrə - 34, texnika elmləri üzrə 27 və biologiya elmləri üzrə - 18) dissertasiya müdafiəsi keçirilib.

Ali Attestasiya Komissiyasının sədri məlumat verib ki, dövri elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərində dərc edilən məqalələrin sayına görə, ölkələrin siyahısında Azərbaycan son dövrlərdə əhəmiyyətli irəliləyişə nail olub. 2014-cü ildə "Web of Science" bazasında dərc edilən elmi işlərin sayı 527 idisə, ötən il bu rəqəm 1787-yə çatıb. Azərbaycan üzrə dərc olunan məqalələrin 93 faizi fizika-riyaziyyat, texnika, Yer, biologiya və tibb elmləri, 7 faizi isə humanitar və ictimai elmlər sahəsinə aiddir.

O deyib ki, elmin inkişafı ölkəmiz üçün son dərəcə vacib və əhəmiyyətli olduğundan bu sahədə görüləcək işlər mütləq digər sahələrdə ölkədə aparılan islahatlarla uzlaşdırılmalıdır: "Bunu nəzərə alaraq, dövlət və özəl qurumların əlaqəli fəaliyyəti, planlaşdırma və qərarların verilməsində bütün maraqlı tərəflərin prosesə cəlb edilməsi vacibdir. Məqsədimiz ölkəmizdə elmi fəaliyyətin və onun idarə edilməsinin müasir, beynəlxalq tələblərə uyğun formalaşdırılmasıdır. Bu istiqamətdə elm sahəsini tənzimləyəcək normativlər, keyfiyyət standartları və meyarlar müəyyənləşdirməli və hər bir elmi müəssisə və təşkilatın bu meyarlara cavab verməsini təmin etməliyik. Qeyd edilən standartları hazırlayarkən həm mütərəqqi beynəlxalq təcrübəni, həm də ölkəmizin qarşısında duran sosial-iqtisadi tələbləri və inkişaf strategiyalarını nəzərə almalıyıq. Müvafiq keyfiyyət standartlarının hazırlanması bu sahənin həm idarə edilməsinə, həm də bu sahəyə ayrılan maliyyə vəsaitlərinin səmərəli istifadəsinə müsbət təsir göstərəcək, elmi tədqiqatı və innovasiyanı təşviq etməyə kömək edəcək".

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Aİ-nin Azərbaycanda elmin və təhsilin inkişafına göstərdiyi dəstək haqqında ətraflı məlumat verib. Qeyd edib ki, təhsil və elmi tədqiqat sahəsindəki əməkdaşlıq bilik və təcrübənin sərbəst hərəkəti üçün imkan yaradır və bu da özlüyündə inkişaf etmiş iqtisadiyyat və açıq cəmiyyətin yaranmasında, həmçinin qarşılıqlı anlaşmanın güclənməsində əsas rol oynayır.

Layihə rəhbəri İlkin Nəzərov bildirib ki, layihə 3 mərhələdə (hazırlıq, icra və yekun) icra olunacaq. Layihənin 2022-ci ildə yekunlaşdırılması nəzərdə tutulur.

Keyfiyyət təminatı və akkreditasiya üzrə baş ekspert Axim Hopbax təhsilin doktorantura səviyyəsində keyfiyyət təminatı və elmi müəssisələrin akkreditasiyası sahəsində Avropa təcrübəsi haqqında təqdimatla çıxış edib. Bu sahədə Xorvatiya, Almaniya və Çex Respublikasının təcrübəsini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Sonda sual-cavab sessiyası təşkil olunub, müzakirələr aparılıb.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Emin Əmrullayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, səhiyyə naziri səlahiyyətlərini icra edən, nazirin birinci müavini Teymur Musayev, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentləri, ali təhsil müəssisələrinin rektorları, elmi müəssisə və təşkilatların direktorları iştirak ediblər.

Qeyd edək ki, "Azərbaycanda təhsilin doktorantura səviyyəsində keyfiyyət təminatı və elmi müəssisələrin akkreditasiya prosesinin gücləndirilməsi" layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və "IBF International Consulting" şirkətinin rəhbərlik etdiyi Konsorsium ilə birgə həyata keçiriləcək. Layihənin məqsədi Avropanın qabaqcıl təcrübəsinə uyğun olaraq təhsilin doktorantura səviyyəsində daxili və xarici keyfiyyət təminatı prosesinin qurulması və elmi müəssisələrin akkreditasiyası üzrə yeni mexanizmlərin tətbiqini təşkil etməkdir. Bu məqsəd çərçivəsində keyfiyyət təminatı və akkreditasiya ilə bağlı qaydaların hazırlanması, kadrların bacarıqlarının artırılması və akkreditasiya prosesinin rəqəmsallaşdırılması nəzərdə tutulur.

# DSX-nin Vətən müharibəsində həlak olan hərbi qulluqçularının xatirəsinə abidə ucaldılıb









**Dövlət Sərhəd Xidmətinin (DSX) Çevik Hərəkət Qüvvələrinin "N" saylı hərbi hissəsində DSX-nin Vətən müharibəsində həlak olan hərbi qulluqçularının xatirəsinə həsr olunan abidə lövhəsinin açılış mərasimi keçirilib.**

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş hərbi qulluqçuların xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmış qranit abidə lövhəsində Vətən müharibəsində şəhid olmuş qəhrəman sərhədçilərin fotoşəkilləri və adları həkk edilib, Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, iştirakçılar bir dəqiqəlik sükutla şəhidlərin ruhuna ehtiramlarını ifadə edib, abidə lövhəsinin önünə əklil və gül dəstələri düzüblər.

Tədbirdə iştirak edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək xalqımızın ədalət və haqq savaşında tarixi Zəfərin əldə edilməsində misilsiz fədakarlıq göstərib, ölkəmizin ərazi bütövlüyü, müqəddəs sərhədlərimizin işğaldan azad olunması uğrunda canlarından keçərək bizlərə sonsuz qürur hissi yaşadan Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin minnətdarlıqla yad olunduğunu qeyd edib.

Tariximizin ən böyük sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatmış Vətən müharibəsində sərhədçilərin döyüş tapşırıqlarını uğurla icra etmələri vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə Anım və Zəfər günlərinin, müxtəlif orden, medal və fəxri adların təsis edilməsi, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılmasının şəhidlərin şücaətlərinin yüksək qiymətləndirilməsi və qəhrəmanlıqlarının təbliğ edilməsi baxımından müstəsna əhəmiyyət kəsb etdiyi bildirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən Azərbaycan sərhədçilərinin xidmətlərinin xüsusi qiymətləndirilməsinin şəxsi heyəti yeni xidməti qələbələrə ruhlandırdığı vurğulanaraq, müqəddəs savaşda sinələrini sipər etmiş bütün qəhrəmanların əziz xatirələrinin daim uca tutulacağı, onların şücaətinin gələcək nəsillər tərəfindən xalqımızın əzmkarlıq, fədakarlıq salnaməsi kimi vəsf olunacağı qeyd edilib.

Tədbirin sonunda Vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərərək Suqovuşanın, Cəbrayıl, Zəngilan və Xocavənd rayonlarının, Şuşa şəhərinin azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilmiş sərhədçilərə orden və medallar təqdim olunub.

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələri Tovuz rayonu istiqamətində mövqelərimizi atəşə tutub

İyulun 7-də saat 13:40 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Berd rayonunun Kolagir kəndi yaxınlığında yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Hərbi cinayətlərdə ittiham olunan erməni hərbçilərlə bağlı növbəti məhkəmə iclası keçirilib

Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara qarşı amansız işgəncələr verməkdə ittiham olunan erməni hərbçilər Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviç ilə bağlı cinayət işi üzrə iyulun 7-də Yasamal Rayon Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, ictimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslər hakimin, prokurorun və vəkillərin suallarını cavablandırıblar.

Prosesdə təqsirləndirilən şəxslər silahlı birləşmənin tərkibində Qarabağda döyüşdüklərini bildiriblər.

Zərərçəkmiş Famil Əliyev qeyd edib ki, Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan müharibə başa çatandan sonra da erməni hərbi birləşmələrinin tərkibində olub və azərbaycanlı əsirlərə xüsusi işgəncələr verib, onları amansızlıqla döyüblər. Bu şəxsləri ermənilərin "ASALA"sı adlandırırdılar.

Zərərçəkmiş Cavid Hüseyn isə bildirib ki, 1995-ci ildə Şuşa həbsxanasında onun gözünün çıxarılmasında və azərbaycanlılara qarşı işgəncələr verilməsində Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan iştirak ediblər.

Daha sonra prosesdə sənədlərin tədqiqi başlayıb.

Prosesin iyulun 14-də davam etdirilməsi qərara alınıb.

Xatırladaq ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələrinin üzvləri, Ermənistan Respublikasının vətəndaşları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətməsi və digər faktlara görə başlanmış cinayət işi üzrə təqsirləndirilirlər.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın azərbaycanlı əsirlərin və beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxslərin girov saxlanılması, onlara işgəncə verilməsi, qəddar və qeyri-insani rəftar edilməsi faktları müəyyənləşdirilib. İstintaqla müəyyən olunub ki, Ermənistan Respublikasının vətəndaşı 1969-cu il təvəllüdlü Lüdvik Mkrtiçyan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistandan gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış silahlı qrupların fəaliyyətində iştirak edib, onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyulunda Xocalı şəhəri yaxınlığındakı "Ballıca" adlandırılan meşədə girov götürülərək azadlığı qanunsuz olaraq məhdudlaşdırılmış Azərbaycan vətəndaşına, habelə 1999-cu il sentyabrın 13-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilmiş və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülmüş Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyənləşdirilib.

Lüdvik Mkrtiçyan 2020-ci il oktyabrın 20-də Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

İstintaqla Alyoşa Xosrovyanın beş azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyənləşdirilib. Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprelində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma "Dağlıq Qarabağ respublikası"nın "müdafiə naziri" Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illərdə əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi qaydada döymə, ac-susuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.

Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazilərində kəşfiyyat xarakterli hərəkətlər apararkən 2020-ci il oktyabrın 3-də Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113-cü (işgəncə), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlara həmin maddələr üzrə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Mayın 20-də iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

# Ermənistan ilə dövlət sərhədi zolağında baş verən yanğın söndürülüb

Fövqəladə Hallar Nazirliyi (FHN) Qazax rayonu ərazisində Azərbaycan Respublikasının Ermənistanla sərhəd zolağında baş verən yanğınla bağlı məlumat yayıb.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatda nazirliyin 112 - Qaynar telefon xəttinə iyulun 6-da axşam saatlarında Qazax rayonu ərazisində Azərbaycan Respublikasının Ermənistanla sərhəd zolağında yanğının baş verməsi barədə məlumatın daxil olduğu qeyd edilib.

Bildirilib ki, məlumatla əlaqədar FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq yanğından mühafizə bölmələri yanğınsöndürmə işlərinə cəlb olunub. Əməliyyat şəraiti qiymətləndirilərkən müəyyən olunub ki, yanğın Ermənistan Respublikası ərazisində başlayıb və Azərbaycan Respublikasının ərazisinə keçib. Qazax rayonunun Aslanbəyli və Qaymaqlı kəndləri ərazisinə (quru ot və kolkos olan açıq ərazilər) keçən yanğınların yanğından mühafizə bölmələrinin çevik müdaxiləsi nəticəsində geniş əraziyə yayılmasının qarşısı alınıb. Yanğın səhər saatlarında söndürülüb.

Ümumilikdə, təxminən 180 hektar sahədə quru ot və kolkos yanıb.

# Respublika Neyrocərrahiyyə Xəstəxanasının həyətyanı ərazisində yanğın olub

İyulun 7-də saat 17:43-də Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - Qaynar telefon xəttinə Bakı şəhərinin Xətai rayonunda yerləşən Respublika Neyrocərrahiyyə Xəstəxanasının həyətyanı ərazisində yanğın olması barədə məlumat daxil olub.




FHN-dən AZƏRTAC-a bildirilib ki, məlumat daxil olduqdan dərhal sonra nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri yanğınsöndürmə işlərinə cəlb edilib.

Yanğınsöndürənlərin çevik müdaxiləsi nəticəsində yanğının genişlənməsinin qarşısı alınıb, yanğın saat 17:52-də söndürülüb.

İlkin məlumata əsasən, xəstəxananın həyətyanı ərazisində karton və taxta tullantıları təqribən 10 kvadratmetr sahədə yanıb. Xəstəxana binası alovdan mühafizə olunub.

# Azərbaycanda koronavirus infeksiyasından daha 54 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 54 nəfər müalicə olunaraq sağalıb, 127 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 336 min 684 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 567 nəfər müalicə olunaraq sağalıb, 4979 nəfər vəfat edib. Aktiv xəstə sayı 1138 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 813 min 17 test aparılıb. Dünənki test sayı isə 10025-dir.




# İyulun 7-də Azərbaycanda koronavirusa qarşı 55 mindən çox vaksin vurulub

İyulun 7-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 55 min 169 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 24 min 211, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 30 min 958 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 910 min 624-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 396 min 007, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 514 min 617 nəfərdir.




# Beynəlxalq aləm

## FETÖ-nün Mərkəzi Asiyadakı əlaqələndiricisi saxlanılıb



Türkiyə xüsusi xidmət orqanları əməkdaşlarının səyləti nəticəsində FFTÖ terrorçu təşkilatının üzvü, qruplaşmanın Mərkəzi Asiya ölkələrindəki fəaliyyətinə rəhbərlik etmiş Orhan İnandi saxlanılaraq Türkiyəyə gətirilmişdir. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasının yekununa görə televiziya ilə müraciətində məlumat vermişdir. Dövlət başçısının dediyinə görə, Gülənin qaçaq tərəfdarı artıq məhkəmə qarşısına çıxarılmışdır. O, Türkiyədə olduğu müddətdə FETÖ-nün gizli strukturunda yer almışdır. Sonradan təşkilatın ali rəhbərlərindən biri olmuş Orhan İnandi FETÖ-nün çirkli pullarını Mərkəzi Asiyada idarə etmişdir. O, çirkin məqsədlərinə nail olmaq üçün alət qismində şüurlarını zəhərləyə bildiyi adamlardan istifadə etmişdir.

Prezident vurğulamışdır ki, Ankara terrorçu qruplaşmanı tam zərərsizləşdirənədək mübarizəni davam etdirəcək. FETÖ-nün strateji müəssisələrdəki bütün strukturları və arxivləri ifşa olunmuşdur. İndiyədək müxtəlif ölkələrdən bu terrorçu təşkilatın 100 nəfərdən çox üzvü Türkiyəyə gətirilmişdir.

## Gürcüstanda "Hindistan koronavirusu"na 52 yoluxma halı təsdiqlənib



Hazırda Gürcüstanda COVID-19-un Hindistan ştammına 52 yoluxma faktı təsdiqlənmişdir. Bu barədə brifinqdə səhiyyə nazirinin müavini Tamar Qabuniya məlumat vermişdir.

Onun dediyinə görə, daha 5 şübhəli halın öyrənilməsi davam edir: "Bu xəstəliyə yoluxanlar arasında hələ ki vəziyyəti ağırlaşanlar yoxdur, lakin "Delta ştammı"nın bundan sonra da yayılacağı riski mövcuddur. Bu səbəbdən xüsusilə ehtiyatlı olmaq lazımdır".

Qabuniya qeyd etmişdir ki, hazırda Gürcüstanda COVID-19-a yoluxma hallarının 10-20 faizi Hindistan ştammının payına düşür.

## ABŞ-da odlu silahdan istifadə ilə 400-dən çox hadisə olub




ABŞ-da son istirahət günləri odlu silahdan istifadə ilə 400-dən çox insident qeydə alınmış, azı 150 nəfər həlak olmuşdur. Bu barədə CNN telekanalı xəbər verir.

Məlumata görə, Nyu Yorkda 72 saat ərzində 26 nəfərə atəş açılmışdır. Çikaqoda 83 nəfərə atəş açılmış, onlardan 14-ü həlak olmuşdur.

Odlu silahdan istifadə ilə insidentlər ABŞ-ın digər ştatlarında da, o cümlədən Atlantada, Texasda, Virciniyada və Ohayoda baş vermişdir.

## Amerikalı hərbçilərin 90 faizi Əfqanıstanı tərk edib



Amerika hərbçilərinin Əfqanıstandan çıxarılma prosesi 90 faizdən çox yekunlaşmışdır. Bu barədə ABŞ mətbuatı xəbər verir.

Pentaqondan verilən məlumata görə, ABŞ və onun tərəfdaşları bu prosesi cari il sentyabrın 11-dək başa çatdırmalıdır.

Müşahidəçilər ehtiyatlanır ki, xarici qoşunlar Əfqanıstanı tərk etdikdən sonra orada "Taliban" terrorçu hərəkatının qiyamçıları daha da fəallaşa bilərlər. Son aylar ərzində taliblər hücum əməliyyatları keçirir və yeni ərazilərə yiyələnirlər. Eyni zamanda qiyamçılar bildirirlər ki, dinc əhali arasında qurban verməmək üçün hələlik vilayət paytaxtlarına hücum etməyi planlaşdırmırlar.

## Kamçatkada matəm elan olunub



Rusiya Federasiyası Kamçatka diyarının qubernatoru Vladimir Solodov bildirmişdir ki, An-26 təyyarəsinin qəzaya uğraması ilə əlaqədar regionda üçgünlük matəm elan edilmişdir. İlkin məlumata görə, qəza nəticəsində 28 nəfər həlak olmuşdur. Bu barədə "İnterfaks" Agentliyi xəbər verir. Məlumata görə, həlak olanların qohumlarına 3,5 milyon rubl məbləğində kompensasiya ödəniləcək.

Xəbər verildiyi kimi, srağagün Petropavlovsk-Kamçatskidən Palana qəsəbəsinə uçan An-26 sərnişin təyyarəsi ilə enişə təxminən 10 dəqiqə qalmış rabitə əlaqəsi kəsilmişdir. Bir müddət sonra təyyarənin qalıqları təpəciyin ətəyində və sahildən 4 kilometr aralıda dənizdə tapılmışdır.

◆ Jurnalist araşdırması

# Sağlamlaşdırılmasına ehtiyac duyulan sağlamlıq turizmi

## Azərbaycanın bu sahədəki unikal imkanlarından yetərincə istifadə edilmir

*Əvvəli 1-ci səh.*

Bakı sakini Solmaz Məcidli revmatik ağrılarına görə təxminən 10 il Qubanın Xaltan kəndindəki termal bulaq suyundan istifadə edib. O, bu suyun müalicəvi əhəmiyyəti barədə tanışlarından eşidib. Kənddə müalicə olunduğu dövrlərdə bulaq suyunun ona xeyli kömək etdiyini söyləyən müsahibimiz artıq yataq xəstəsi olduğu üçün oraya gedə bilməməsinə təəssüflənir: “Mənim kimi oraya tez-tez gedən başqa xəstələri də tanıyırdım. Təəssüf ki, Xaltanda xəstələr üçün müalicəvi bir mərkəz, sanatoriya yox idi. Kənddə hotel olmadığından mən, eləcə də mənim kimi digər xəstələr oraya gedərkən kirayə qalırdıq”.

Xaltan bulağı Azərbaycanın sağlamlıq turizminin təşkili üçün yararlı məkanlarından biridir. Bir çox xəstəliklərin müalicəsi üçün əhəmiyyətli olan Xaltan bulağının suyunun xarici analoqları var. Lakin Azərbaycandan fərqli olaraq, xarici ölkələrdə belə sulardan daha səmərəli istifadə edilir. Məsələn, Şimali Qafqazda və Krımda Xaltan bulağının analoqları olan termal mənbələrin bazasında sanatoriyalar tikilib.

Əlbəttə ki, haqqında danışdığımız bulaqlar ölkəmizin sağlamlıq turizminin potensialının çox kiçik hissəsidir. Çünki Azərbaycanın demək olar ki, hər bir guşəsində özünün müalicəvi əhəmiyyəti ilə seçilən çox sayda təbii müalicə ehtiyatları, mineral sular var. Onların bəziləri hətta analoqsuz sayıla bilər. Ancaq bütün bu imkanlara baxmayaraq, ölkəmizdəki mineral sulardan müalicə-sağlamlıq məqsədilə geniş istifadə edilmir.

### XII əsrdən başlayan inkişaf yolu

Sağlamlıq turizminin tarixi mərhələlərinin təhlili göstərir ki, tibb elmi antik dövrdən yaransa da, müalicəvi bulaqlardan elmi əsaslarla Orta əsrlərdə istifadə olunmağa başlanılıb. XIX əsrin əvvəllərindən etibarən Avropa ölkələrində müalicəvi sular məşhurlaşıb.

Hazırda sağlamlıq turizmi sahəsində ən çox seçilən ölkələrə ABŞ, Hindistan, Kuba, Kosta Rika, Tayland, Sinqapur, Kolumbiya, Malayziya, Türkiyə, Meksika, Almaniya və Cənubi Koreya aiddir. Dünyada bu turizmə olan tələbat getdikcə artmaqdadır. Bunun əsas səbəbləri insanların keyfiyyətli tibbi xidmətlərə əlçatanlığının təmin olunması, sağlamlıq turizminin müalicə ilə yanaşı, fiziki və əqli yorğunluğun bərpası, xüsusi qulluq və gözəllik yönümlü digər xidmətlər də təklif etməsidir. Qlobal miqyasda sağlamlıq xidmətlərinin turizm sənayesində birbaşa payı 10%-dən çoxdur.

Azərbaycanda turizm növləri arasında sağlamlıq turizminin payı az olsa da, beynəlxalq miqyasda sağlamlıq xidmətləri daha çox təklif edilir. Azərbaycanda sağlamlıq turizminin inkişafı tarixi XII əsrdə Naftalan müalicəvi neftindən istifadə ilə başlayır. Karvan yollarının kənarında yerləşən Gülüstan, Goranboy yaşayış məntəqələrinin yaxınlığında Naftalan neftindən müalicə vannaları fəaliyyət göstərib. İpək yolunun iki istiqamətinin buradan keçməsi müalicə məqsədilə Naftalan neftindən istifadə edənlərin sayını artırıb.

Azərbaycanda XIX əsrin ikinci yarısından Naftalan nefti ilə yanaşı, müxtəlif mineral və termal su mənbələrindən istifadə olunmağa başlanılıb. Ölkəmizdə termal sulardan istifadə olunması XIX əsrin sonuna təsadüf edir. Həmin dövrlərdə rus zabitlərinin müalicəsini təşkil etmək məqsədilə Lənkəran, Şuşa, Zaqatalada ilk müalicə vannaları istifadəyə verilib. Şuşada olan belə müalicə mərkəzi rus zədaganlarının istirahət mərkəzi kimi məşhurlaşıb.

### İstifadəçilərin çoxu yerli vətəndaşlardır

Azərbaycanda sağlamlıq turizm üzrə əsas müştəri seqmenti ölkə vətəndaşlarıdır. Respublikamızda müalicə-sağlamlıq xidmətlərindən istifadə edənlərin sayı 200 min nəfərə yaxındır ki, bunun da 63,9 min nəfəri xarici turistlər, 68%-i isə ölkə vətəndaşlarıdır.

Xarici turistlərin əsas hissəsi MDB məkanından gələn qonaqlardır. Onların arasında Rusiya, Qazaxıstan, Ukrayna, Belarus, Özbəkistan vətəndaşları çoxluq təşkil edir. Bu turistlər müalicə üçün daha çox Naftalan kurortlarını, Duzdağ və Abşeron sanatoriyalarını seçir.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının Ekspertlər Şurasının sədri Göydəniz Qəhrəmanov hesab edir ki, Azərbaycanda sağlamlıq turizmi dövlət tərəfindən ən çox diqqət göstərilən turizm növlərindən biridir. Bunun nəticəsidir ki, Naxçıvanda “Duzdağ”, Şabranda “Qalaaltı Hotel&Spa”, Naftalanda bir çox sanatoriyalar regionun nəhəng müalicə mərkəzlərinə çevrilib. Naftalandan olan neftlə müalicə üsulu, Naxçıvanda yerləşən Duzdağ mağarası dünyada unikal nümunələrdəndir.

Şura sədri əlavə edir ki, 2020-ci ilin əvvəlindən başlayan koronavirus pandemiyası Azərbaycanda olan sanatoriyaların fəaliyyətini məhdudlaşdırıb. Belə ki, sərhədlərin bağlı olması səbəbilə xaricdən gələn turistlərin sayında kəskin azalma müşahidə olunub. Bu da sanatoriyaların işini çətin duruma salıb: “Pandemiyadan əvvəlki dövrdə dünyanın müxtəlif ölkələrində keçirilən turizm sərgilərində Azərbaycanın tibbi turizmi aktiv şəkildə təbliğ olunurdu. Hazırkı dövrdə müalicə məqsədilə Azərbaycana gələn xarici vətəndaşlara xüsusi icazələrin verilməsi bu sahənin özünü bərpasını sürətləndirə bilər. Xarici ölkələrdə belə bir təcrübə mövcuddur. İnanıram ki, pandemiya bitəndən sonra turizmin bu növü daha da inkişaf edəcək və sağlamlıq turizmi xarici turistlərin diqqətini cəlb edən əsas turizm məhsullarından birinə çevriləcək”.

### Dünyadakı bütün mineral sulardan Azərbaycanda var

Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə Azərbaycanda müalicə-sağlamlıq məqsədilə aparılan araşdırma nəticəsində məlum olub ki, ölkəmizdə müalicəvi müəssisələr (sanatoriyalar, istirahət evləri, pansionatlar, balneoloji və palçıq müalicə ocaqları, kurort poliklinikaları, bərpa mərkəzləri və s.), sanatoriya mühafizə zonaları və digər kurort infrastrukturunun təşkili üçün hər cür imkan var. Balneoloji ehtiyatlar sanator-kurort müəssisələrində başlıca müalicə amillərindən sayılır ki, Azərbaycan da bu baxımdan xüsusi imkanlara malik ölkə hesab edilə bilər. Çünki dünyada qəbul olunan səkkiz qrup mineral suyun demək olar ki, hamısına ölkəmizdə rast gəlinir.

Azərbaycanda olan mineral su ehtiyatının 33%-i Kəlbəcər və Laçın rayonlarının payına düşür. Bu rayonlardakı mineral su ehtiyatının 42%-i Laçının, 58%-i Kəlbəcərin ərazisindədir. Yalnız Kəlbəcər rayonunun Tərtər çayı hövzəsində 400-dən artıq mineral su yatağı var.

Karbonlu mineral sular bütün ölkədə tədqiq olunmuş müalicəvi su mənbələrinin 35%-dən çoxunu əhatə edir. Ölkəmizdə karbonlu mineral sular ancaq Kiçik Qafqaz və Naxçıvan Muxtar Respublikasının ərazisində yayılıb. Belə sulara misal olaraq məşhur Nəhacir (Ordubad), Badamlı (Babək), Turşsu (Şuşa), Qızılca (Gədəbəy), Darıdağ (Culfa), İstisu (Kəlbəcər) kimi mineral su mənbələrini göstərmək olar.

### Müalicə üçün palçıq vulkanlarından az istifadə edilir

Azərbaycanda 350-dən çox palçıq vulkanı mənbəyi var. Araşdırmaya görə, vulkan palçıqlarının hamısı müalicə məqsədilə istifadə oluna bilməz. Tərkibində üzvü birləşmələrin, yod, brom, hidrogen sulfidin, naftenlərin miqdarı çox olduqda onlar müalicə üçün yararlı hesab edilir. Müalicəvi palçıq əsasən lil palçığı (Masazır və Zığ gölünün palçıqları) və təpə (vulkan) palçıqları hesab olunur.

Ümumilikdə, Azərbaycanda 9 vulkanın müalicəvi tərkibinin təsdiq olunmasına baxmayaraq, onlardan müalicəvi məqsədlər üçün məhdud istifadə edilir. Masazır gölünün palçığı 40 il müddətində kurort müalicəsində geniş istifadə olunsa da, son 10 ildə göldə duz istehsal edildiyindən bu işlər dayandırılıb.

Ölkədə müalicəvi baxımdan ən çox öyrənilmiş Axtarma, Qaradağ, Daşgil, Bahar, Masazır, Babazənən, Qaynarca vulkan palçıqları öz tərkiblərinə görə Gürcüstanın palçıq kurortu olan Axtala mənbəyinə oxşardır. Şimali Qafqazdakı Tabukan gölü və Krımdakı vulkan palçıqlarından isə müalicəvi təsirlərinə görə üstündür.

Abşeron sanatoriyalarında vulkan palçığından kompleks istifadə üçün maddi-texniki bazanın az da olsa mövcudluğu bu imkanlardan yararlanmağa şərait yaradır. Hesab edilir ki, Abşeronda vulkan palçığına əsaslanan sanatoriyanın tikilməsi mümkündür. Belə bir sanatoriyanı müalicəvi xüsusiyyətləri daha üstün olan Daşgil palçıq vulkanının bazasında təşkil etmək daha əlverişlidir. Eyni zamanda Zığ, Masazır palçıqlarından istifadə etməklə kompleks müalicə xidməti göstərən sanatoriyaların tikintisi iqtisadi cəhətdən səmərəli olar.

Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya və Geofizika İnstitutunun professoru, elmlər doktoru Adil Əliyevin fikrincə, ölkəmizdəki vulkanların sayı, tərkibi palçıq vulkanları ilə müalicəni təşkil etməyə imkan verir. O bildirir ki, sayına, tərkibinə, aktiv fəaliyyətinə görə Azərbaycandakı palçıq vulkanlarının dünyada analoqu yoxdur.

Alimin qənaətincə, palçıq vulkanları ilə müalicələrin təşkili dövlətimizə əlavə gəlir gətirə bilər: “Ölkəmizdəki vulkanların sayı, tərkibi nəzərə alınarsa, burada palçıq vulkanları ilə müalicəni təşkil edə bilərik. Nəzərə alaq ki, Qobustandakı Qoturdağ və Çeyildağ vulkanları dünyada çox nadir hallarda rast gəlinən vulkanlardandır. Bakıdan 50 km qərbdə yerləşən Çeyildağ vulkanı uzun müddət ərzində tədricən püskürərək günbəzşəkilli brekçiya qatı əmələ gətirir. Qoturdağ vulkanında isə suxur daim sıxılır. Ona oxşar vulkan Rusiyada var. Digər ölkələrdə belə vulkan yoxdur. Azərbaycana gələn turistlər üçün də belə vulkanlar maraqlıdır. Əgər bu işə sərmayə yatırılsa, onda bu, respublikamıza daxil olan valyutanın artmasına səbəb olar”.









### Xəzərin sağlamlıq potensialından tam istifadə edilmir

Araşdırmaların nəticələrinə görə, Xəzər sahillərində günəşli günlərin və saatların çox olması, sahillərdə oksigenin, yodun artması, quru iqlimi, narın qumlu çimərlikləri helioterapiya və talassoterapiya imkanlarını artırır. Abşeronun şimal sahillərinin “qızıl” qumlu, Lənkəran sahillərinin qara qumlu çimərlikləri talassoterapiyanın təşkili üçün daha əlverişli ərazilərdir.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının (AHTTSA) prezidenti Ruslan Quliyev də hesab edir ki, Azərbaycan Xəzər dənizinin, eləcə də Abşeron yarımadasındakı müalicəvi göllərin, palçıq vulkanlarının sağlamlıq potensialından lazımi şəkildə istifadə edə bilmir.

Onun fikrincə, Azərbaycanın ekoloji və sağlamlıq turizmi üzrə model ölkə olmaq imkanı var. Mütəxəssis əlavə edir ki, sağlamlıq turizminin təşviqi fondlarının və müxtəlif proqramların tətbiqi sağlamlıq turizmi məqsədilə ölkəyə gələcək turistlərin sayına müsbət təsirini göstərəcək.

### Sağlamlıq turizmi bütün aylarda gəlir gətirər

Ruslan Quliyev qeyd edir ki, turizmin digər növlərində, o cümlədən dəniz turizmində gecələmə sayı azdır. Lakin sağlamlıq turizmində müalicə kursu ən azı 15 gün olduğuna görə, bu növ turizmin ilin bütün aylarında effektiv gəlir gətirmə imkanı var.

Hazırda Azərbaycana sanatoriya-kurort xidmətlərindən istifadə məqsədilə bu xidməti göstərən müəssisələrə daha çox may-sentyabr aylarında müraciət edilir. Sağlamlıq turizmi üzrə digər məqsədlərlə müəssisələrə müraciətlərin edilməsi ilin bütün fəsillərində qeydə alınır.

Ruslan Quliyev əlavə edir ki, Türkiyə və Kiprdə sağlamlıq turizmi ilə əlaqədar, minimum 12-14 gün gecələmə məqsədilə turist gətirən xarici turizm agentliklərinə və operatorlara hər turistə görə 70 şərti vahid dəyərində təşviqedici vəsait verilir. Onun fikrincə, Azərbaycanda da ölkəyə 7 gecə qalacaq turist gətirən şirkətlərə (əgər bütün səyahət sənədlərinin surəti təqdim olunarsa) büdcədən vəsait ödənilə bilər.

Ekspert buna görə turist təşkilatlarına büdcədən bir nəfər turist üçün 70 manat vəsaitin ödənilməsini təklif edir. Bu halda turizm şirkətlərinə büdcədən ödəniləcək vəsaitin məbləği onların büdcəyə gətirəcəyi gəlirdən dəfələrlə çox olacaq: “Məsələn, ölkəyə 1 milyon turist daxil olur və onların hər biri 7 gecə ölkəmizdə qalarsa, bu, 7 milyon gecələmə deməkdir. Hər bir turist 1 həftədə 1000 manata yaxın pul xərcləyirsə, büdcədən 70 milyon vəsait çıxır, əvəzində ölkəyə 1 milyard vəsait daxil olur”.

### Ermənilər Qarabağdakı sanatoriya-kurort müəssisələrini məhv ediblər

Ruslan Quliyev bildirir ki, hələ sovet dövründə sağlamlıq turizmi imkanlarının mövcud olduğu Kəlbəcərin İstisu termal mərkəzi, Şuşanın, Ağdamın bolneoloji sanatoriyaları bütün SSRİ-də məşhur idi: “Şuşadakı kurort müəssisələri, pansionat və sanatoriyalar, Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi Cıdır düzü buraya səyahətə gələnlərin sevimli yeri olub. Bunlarla yanaşı, Xankəndi, Ağdam, Kəlbəcər ərazilərindəki rekreasiya məkanları, ümumilikdə bölgənin turizm potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb. Respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. 1970-ci illərdən başlayaraq burada yaradılmış turizm istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib. 1990-cı illərdə Qarabağın ermənilər tərəfindən işğalından sonra bu zonada turizmin inkişafı da dayandı. Düşmən insanların evlərini, dövlət obyektlərini, dini və tarixi abidələrimizi dağıtdığı kimi, mövcud sanatoriya-kurort müəssisələrini də məhv edib. Amma təbiətin bəxş etdiklərini özündən başqa kimsə yox edə bilməz. Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda, Ağdamda çoxsaylı termal qaynaqlar var ki, bunların hərəsi bir dərdin dərmanıdır”.

Ruslan Quliyevin fikrincə, Qarabağda sağlamlıq turizminin inkişafı üçün ilkin etapda indiyə qədər mövcud olan təsisatların ən azından informativ xarakterli bir xəritə planının, məlumat bazasının yaradılması lazımdır: “Bununla yanaşı, azad edilmiş ərazilərimizdəki termal qaynaqlardan nümunələr götürülə və bunun nəticələri əsasında bir çox müalicəvi sanatoriya-kurort müəssisələrinin yaranmasının əsası qoyula bilər. Düşünürəm ki, bu sanatoriyalar müəyyən vaxtdan sonra müalicəvi əhəmiyyətinə görə dünyanın ən məşhur müalicə mərkəzlərinə çevrilər və buraya ildə minlərlə turist cəlb etmək mümkün olar. Bundan sonrakı mərhələdə Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Beynəlxalq İşçi Qrupun yaradılmasına ehtiyac duyulur. Bu işçi qrup mütəxəssislər dəvət edərək biznes planlar, infrastruktur layihələrinin həyata keçirilməsi üçün inkişaf planı hazırlaya bilərlər. Daha sonra xarici investisiyaların cəlb olunması ilə bağlı uzunmüddətli strategiya həyata keçirmək mümkündür”.

### Sağlamlıq turizmi sistem vəhdəti yaradılmalıdır

Ruslan Quliyev hesab edir ki, əsas məqsədlərdən biri Azərbaycanda, o cümlədən Qarabağda sağlamlıq turizmi sahəsində klasterləşmə (sistemli birləşmə) siyasətinin aparılması və beləliklə məhz bu sahədə çalışan, işbirliyi olan QHT və hüquqi şəxslərin bir-birindən asılı olan sahələrarası qarşılıqlı bağlantısının həyata keçirilməsidir.

Mütəxəssisin fikrincə, klasterləşmə bu gün Azərbaycan üçün labüddür, çünki bu halda kiçik və orta sahibkarlıq subyektləri arasında həm rəqabət, həm də əməkdaşlıq üçün yeni imkanlar yaranacaq. Sağlamlıq turizmi sahəsində klasterləşmənin aparılması müəyyən coğrafi sərhədlər daxilində bir-birini təkrarlayan deyil, bir-birini dəstəkləyən, tamamlayan təsisatların fəaliyyətini bir dəyər zənciri ilə bağlayacaq: “Sağlamlıq turizmi məhsulunun əldə olunması üçün bütün mərhələlər bir məkanda reallaşır. Klasterləşmə eyni zamanda həm alt sektorlar, həm də coğrafi ərazilər üzrə təşkil oluna bilər. Klasterləşmənin üstünlükləri sayəsində rəqabət qabiliyyətinin artırılması, əməkdaşlıq diapozonunun genişləndirilməsi təmin ediləcək, bu sahədə sürətli inkişaf baş verəcək. Eyni zamanda fərqli və eyni sahələrin bir-birinə dəstəyi nümayiş olunacaq. Turizm klasteri üç əsas təməl ünsürdən formalaşır ki, bunlara sahibkarlıq subyektləri, bütün istehsal, xidmət, tədarük sahəsində olan müəssisələr daxil olur”.

### Aviabiletlərin qiymətlərinin yüksək olması sağlamlıq turizminə mənfi təsir edir

Turistlərin əksəriyyəti ölkəmizə təyyarə ilə gəldiyi üçün hava nəqliyyatı sağlamlıq turizm paketlərinin xarici ölkə vətəndaşlarına satılmasında maraqlı tərəf kimi çıxış edir.

DTA-nın araşdırmalarının sonunda gəlinən qənaətə görə, sağlamlıq turizmi məhsullarının səyahət agentlikləri ilə “AZAL” və digər hava nəqliyyatı şirkətləri arasında birgə hazırlanması turistlərin cəlb olunmasında əhəmiyyətli olardı: “Hava nəqliyyatında qiymətlərin yüksək olması digər turizm növləri kimi sağlamlıq turizminə də mənfi təsir edir. Ölkədə sağlamlıq turizminin prioritet sahə olmasını nəzərə alaraq “AZAL”ın qiymət siyasətinə yenidən baxması vacibdir. Xüsusilə ölkənin sağlamlıq turizm mərkəzləri üçün paket alan turistlərə güzəştli qiymətlərlə avia vauçerlər təqdim edilməlidir. Eyni zamanda DTA, “AZAL” və sağlamlıq müəssisələri ölkəyə sağlamlıq turizm seqmentini cəlb etmək üçün birgə qiymət siyasəti hazırlamalıdır”.

### Qarabağı necə turizim mərkəzinə çevirməli?

Sağlamlıq turizminin inkişafı üçün geniş potensial olsa da, onlardan istifadənin aşağı səviyyəsi, marketinq fəaliyyətinin və təşkilati işlərin zəif təşkili rəqabət imkanlarını azaldır. Problemlərin həlli, ölkədə fəaliyyət göstərən kurort-müalicə müəssisələrində yeni xidmətlərin təklif olunması daha çox gəlir götürməyə imkan verər.

Araşdırmalar nəticəsində bu qənaətə gəlinib ki, ölkədə sağlamlıq turizmi sahəsində xidmətlərin yüksəldilməsi, beynəlxalq miqyasda rəqabət qabiliyyətinin artırılması üçün unikal kurort müalicə imkanlarını təqdim edən məhsullar, kurort xidmətləri üzrə müalicəvi sağlamlıq turizmi paketləri hazırlana bilər. Balneoloji, iqlim kurort resurslarının daha çox cəmləşdiyi ərazilərdə mobil sağlamlıq mərkəzlərinin yaradılması, Naftalan müalicəvi nefti əsasında kosmetik məhsulların və dərmanların istehsalı, brendləşdirilməsi faydalı olar. Bununla yanaşı, sağlamlıq xidmətlərində putyovka (güzəştli yollayış) sisteminin təkmilləşdirilməsi, sağlamlıq turizmində investisiyaların cəlbi, kurort turizm məhsullarının beynəlxalq miqyasda tanıdılması daha çox iqtisadi effekt vermiş olar.

Sağlamlıq turizminin inkişafı üçün təkliflərini açıqlayan Ruslan Quliyev bildirir ki, işğaldan azad edilmiş ərazilərimizdə turizmin inkişafına nail olmaq üçün müxtəlif sahibkarlıq subyektlərinə dövlət tərəfindən indiyə qədər edilən dəstək daha da dərinləşdirilməlidir: “Bu, sistemli olmalıdır. Hesab edirəm ki, ilkin olaraq Turizmin İnkişafına Dəstək Fondu yaradılmalı, “Təşviqlər-subsidiyalar” haqqında qanun qəbul edilməlidir”.

Mütəxəssis hesab edir ki, Qarabağ turizm zonasına 7-14 gün gecələmə şərti ilə turist gətirən turizm şirkətləri üçün “Azərbaycan Hava Yolları” QSC tərəfindən 50% endirim tətbiq olunmalıdır. Bu güzəşt təxminən 3 il müddətində tətbiq edilə bilər. Qarabağda çalışan şirkətlərə 10-15 il müddətinə 1,5 faizlə kreditin verilməsi yaxşı olar.

Ruslan Quliyev deyir ki, İqtisadiyyat Nazirliyi şirkətlər üçün postmüharibə dövrü ilə bağlı təkliflər paketi hazırlamalıdır: “Xarici və daxili amilləri nəzərə almaqla, sırf Qarabağın inkişaf strategiyasında bu məsələlər nəzərə alınmalı, hüquqi-normativ sənədlər bazasında bəlli bir qanun və platformalar hazırlanmalıdır. Xarici investisiyaların cəlbinə, kadr hazırlığına xüsusi diqqət yetirilməlidir. Qurulan yeni təsisatlarda yerli kadrlarımıza üstünlük verilməlidir. Qarabağ zonasında turizm peşə məktəblərinin, Şuşada Azərbaycan Turizm və Menecment Universitetinin filialının açılması məqbul olardı. Düşünürəm ki, Qarabağda “Silikon Vadisi”nin analoqunu yaratmaq olar. Azərbaycanın bu illər ərzində beynəlxalq platformalarda - Ümumdünya Turizm Təşkilatında, sağlamlıq turizmi qurumlarında, ekoturizm cəmiyyətlərində təmsil olunmasından geniş istifadə edə bilərik. Azərbaycanın bu savaşdakı qələbəsi bütün dünya reytinqində, istər siyasi, istər mədəni, istərsə də digər sahələrdə ölkəmizin nüfuzunu artırıb. Ölkəmizə sərmayə qoymaq istəyən təşkilatlar da quruculuq işlərində iştirak etmək istəyirlər. Bu iştirak turizmlə də bağlı ola bilər. Mənim təxmini hesablamalarıma görə, bu məsələlər paralel aparılarsa, biz 6-8 il ərzində Qarabağda turizmin 85 faizini qura bilərik”.

### Turizm potensialı yenidən dəyərləndirilməlidir

Azərbaycan turizm potensialının mövcudluğu baxımından şanslı ölkələrdən sayıla bilər. Lakin bu potensialın qlobal miqyasda tanıdılması, beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün əlavə xidmətlərin yaradılması, yeni kurort destinasiyalarının istifadəyə verilməsi, marketinq və reklam işinin təşkili ölkəmizə kütləvi turist axınlarının cəlbinə imkan verər.

Bütün bunlar qeyri-neft sektoru hesabına ölkəmizin büdcəsinə əlavə gəlirlərin daxil olması, bu sahədə yeni iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi deməkdir. Bütün bunlar üçün isə, ilk növbədə, sağlamlıq turizminin təşkili sahəsindəki problemlər aradan qaldırılmalı, yaranan imkanlar bütün təbəqədən olan insanlar üçün əlçatan olmalıdır.

İnanırıq ki, bu gün təkcə Qarabağın deyil, bütün regionların turizm potensialından geniş və səmərəli istifadə etməyi qarşısına əsas hədəf kimi qoyan ölkəmiz sadalanan problemləri həll etmək, imkanları lazımınca dəyərləndirməklə Azərbaycana gələn turistlərin sayının daha da artmasına, turizmin büdcə gəlirlərinin formalaşmasındakı payının yüksəldilməsinə nail olacaq.

*Sözsüz ki, Azərbaycanın iqtisadi gücü bunları reallaşdırmağa imkan verər. Sadəcə, bunun üçün potensialımız dəyərləndirilməli, onlardan istifadə üçün yeni innovativ layihələr reallaşdırılmalıdır...*

***İlhamə İSABALAYEVA, “Azərbaycan”***

---

Yeni nəşrlər

# Azərbaycan mətbuatının şəfəqləri

**Azərbaycan milli mətbuat tarixinin uzunömürlülüyünə, eləcə də zənginliyinə görə fərqlənməsi barədə klassiklərimizin bir-birindən dəyərli fikirləri, məqalələri, cild-cild kitabları var. Bu sahəyə həvəsli olan tədqiqatçı jurnalistlərimiz də az deyil.**




Bu baxımdan filoloq Nazim Axundovun “Molla Nəsrəddin” jurnalının nəşri tarixi” kitabı, Zərdabişünas İzzət Rüstəmovun “Əkinçi” qəzeti haqqında elmi tədqiqat əsəri, Qulam Məmmədlinin, professorlar Şirməmməd Hüseynovun, Teymur Əhmədovun, eləcə də Əfqan Əsgərovun, Cəmil Əlibəyovun, Vəli Məmmədovun, Şövqi Novruzovun, Adil Hüseynovun araşdırmaları, Nəriman Zeynalovun və digər belə görkəmli mətbuat xadimlərinin təşəbbüsləri diqqəti cəlb etməyə bilməz.

Lakin 150 ilə yaxın zəngin, maraqlı tarixə malik milli mətbuatımızın tam, daha geniş, eləcə də yeni nəzəri baxımdan işıqlandırılması bu gün daha vacibdir. Ağır müstəmləkə, ziddiyyətli həyat, erməni düşmənçiliyi, inqilabi çaxnaşmalar, milli oyanış və azadlıq uğrunda mübarizə, çətin iqtisadi durum şəraitində yaranan mətbuat və jurnalistikamızın tarixi, ideoloji baxımdan, obyektiv tərzdə tam genişliyi ilə tədqiqi öz aktuallığını saxlamaqdadır. Bu dövrdə 200-ə yaxın Azərbaycan və rus dillərində nəşr olunan müxtəlif əqidəli qəzetlər və jurnallar qısa ömür sürsələr də, təqiblərə məruz qalsalar da, mədəniyyət tariximizdə böyük rol oynayıblar. Çox təəssüf ki, bu yazıların müəlliflərinin adları mənbə göstərilmədən çap edilib.

Tarix elmləri doktoru, yazıçı-jurnalist, 70 ildən artıq bu sahənin peşəkarı kimi yorulmadan çalışan, Azərbaycan mətbuatındakı xidmətlərinə görə dövlət başçısının fərmanı ilə “Tərəqqi” medalına, həmçinin, Beynəlxalq Dinlərarası Sülh Uğrunda Federasiyanın Sülhməramlı səfiri fəxri adına layiq görülən Sabir Gəncəli-Məmmədovun “Azərbaycan mətbuatının şəfəqləri” ensiklopedik toplusunun da işıq üzü görməsi təqdirəlayiqdir.

Nəfis tərtibatda, zəngin faktlar əsasında hazırlanan toplu Ulu Öndər Heydər Əliyevin bu fikri ilə açılır: “Mənim həyat amalım varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət etməkdir”.

Müəllif Ümummilli Liderin Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinin əvəzedilməzliyi ilə bağlı fikirlərinin də yer aldığı “Ön söz”də xüsusi vurğulayır: “Xalqın hörmətini, unudulmaz istəyini qazanmış Ulu Öndərimiz Heydər Əliyev çıxışlarında qeyd edirdi ki, keçmişini bilməyən xalq gələcəyini qura bilməz. Azərbaycanın dövlət başçıları arasında Heydər Əliyev qədər xalqımızın tarixi, mədəniyyəti, incəsənəti və ədəbiyyatı ilə maraqlanan, onun inkişafına çalışan olmamışdır...”

Bununla yanaşı, müəllif Azərbaycan Prezidenti İlham Əliyevin də milli mətbuatımıza, müstəqil, müasir, inkişafda olan KİV-ə dövlət dəstəyinin də mühüm əhəmiyyət daşıdığını diqqətə çəkir.

Uzun illərin tədqiqatı, bu sahədə çalışması nəticəsində müəllifin topladığı materiallar, sözün əsl mənasında, milli mətbuatımızın vərəqlənməmiş tarixinin bir parçasıdır. Elmi işini, eləcə də publisistik fəaliyyətini əsaslı faktlarla zəngin şəkildə daha geniş oxucu auditoriyasına təqdim etmək üçün Sabir Gəncəli-Məmmədov XIX əsrin ikinci yarısından iyirminci yüzilliyin sonunadək, daha dəqiq desək, 150 il ərzində Azərbaycan və rus dillərində nəşr edilən qəzet-jurnalları araşdırmaq üçün 1956-cı ildən başlayaraq bir sıra institut və muzeylərin, dövlət arxivlərinin, kitabxana fondlarında qorunan yadigarların saralmış vərəqlərini səhifələyib.

Məhz Sabir Gəncəli-Məmmədovun belə yorulmaz fəaliyyətinin nəticəsidir ki, respublikamızın görkəmli alimlərindən - akademik Ziya Bünyadov, Firudin bəy Köçərli, Cəmil Quliyev, professor Məmməd Qazıyev, Abbas Zamanov və başqaları onun elmi və ədəbi-ictimai tədqiqatlarına yüksək qiymət veriblər. AMEA-nın müxbir üzvü Mahmud İsmayılov yazır: “Sabir Gəncəli tarixşünaslıq elmində yenilik etmiş, mədəniyyət və mətbuat tariximizdə şərəfli rol oynamış, maarifpərvər ziyalı qadınlarımızı üzə çıxarmış, əsl kəşf etmişdir...”

Kitabın “Son söz” yerindən oxuyuruq: “Vətən məhəbbəti və qürur hissi ilə yazdığımız bu ensiklopedik toplu milli mətbuat tarixində son iş deyil. Xalqımız yaşadıqca gözəl, müqəddəs, yurdumuz durduqca xoşməramlı, daha sanballı, böyük işlər görəcək, ölkəmizin başını uca edən kitablar, ensiklopediyalar yazılacaqdır. Bu məramda Vətən sevgisilə fəaliyyət göstərəcək alimlərə, ədiblərə, mətbuat xadimlərinə cansağlığı, tükənməz həvəs, böyük uğurlar və sələflərini unutmamağı arzu edirik”.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

# Futbol üzrə XVI Avropa çempionatı





# İtaliya çempionluğun bir addımlığındadır

*Əvvəli 1-ci səh.*

İtaliya komandası "Avro-2020"də keçirdiyi 5 oyunun hamısında qələbə qazanmış, yalnız Avstriya ilə 1/8 final qarşılaşmasında çətinlik çəkmişdi. İspaniya isə Slovakiya ilə matçda asanlıqla qalib gələrək digər qarşılaşmalarda 3 heçheçə ilə yoluna davam etmişdi. Məhz bu səbəbdən matçdan öncə italyanlar görüşün favoriti hesab edilirdilər.

Amma hücum futboluna üstünlük verən hər iki komandada aşkar bombardirin olmaması da diqqət çəkirdi. Belə ki, yarımfinal mərhələsinə kimi 5 oyunda 12 dəfə rəqib qapısına yol tapan İspaniyanın heyətində 6 futbolçu fərqlənmiş, 3 dəfə avtoqol qeydə alınmışsa, İtaliyanın 11 qolu 6 futbolçu tərəfindən vurulmuş və 1 avtoqolu olmuşdu.

İspaniyanı hər oyunda topa sahibolmada üstünlük qazanan komanda kimi tanısaq da, İtaliya da son vaxtlar bu göstəricidə 50 faizdən çox nəticə göstərməsi ilə seçilirdi. Axırıncı 3 ildə italyanlar yalnız 2018-ci ildə Portuqaliyaya məğlub olduqları oyunda (0:1), həmçinin "Avro-2020"də İsveçrə ilə qarşılaşmada (3:0) cüzi üstünlüyü rəqibə vermişlər.

Rəqiblərin 2017-ci ildə dünya çempionatının seçmə mərhələsi çərçivəsində Madriddə keçirilən sonuncu qarşılaşmasında İspaniyanın 3:0 hesablı inamlı qələbə qazandığını da vurğulamaq yerinə düşərdi. Həmin oyunda çıxış edən ispaniyalı futbolçulardan yalnız David de Xea ("Avro-2020"də ehtiyatda olmuşdu), Jordi Alba, Sergio Busgets, Koke və Alvaro Morata, italyanlardan isə Leonardo Bonucci, Marco Verratti, Andrea Belotti, Lorenzo İnsiqne, Federiko Bernardeski və Çiro İmmobile heyətdə yer almışdılar.

Oxuculara maraqlı olması üçün diqqətə çatdırdığımız bu məlumatlardan sonra möhtəşəm yarımfinal matçının təhlilinə keçək. Beləliklə, görüşün almaniyalı baş hakimi Feliks Brıxın start fitindən sonra qarşılaşmada baş məşqçilərin taktiki savaşının şahidi olduq. Belə ki, ispanlar italyanların turnir boyu nümayiş etdirdiyi oyun planını onlara qarşı tətbiq etdilər. Meydançanın rəqibə aid hissəsində pressinq tətbiq edərək İtaliyanın oyun qurmasına, habelə itirilən hər topu tez bir zamanda geri alaraq Mançininin komandasına boş zona buraxmadılar.

Hələ qarşılaşmadan öncə İspaniya millisinin baş məşqçisi Luiz Enrike start 11-likdə bundan əvvəlki matçlarda forma geyən hücumçu Morataya şans vermədi. Bu, bir çoxları üçün sürpriz qərar kimi görsənsə də, əslində başadüşülən idi. Plan mərkəz xətti daha da gücləndirərək sürətli ötürmələrlə italyanların oyun qurmasına maneçilik törətmək idi. Xüsusilə Busgets, Koke və Pedri triosunun mükəmməl oyunu ilə ispaniyalı mütəxəssis istədiyinə nail oldu. Belə ki, ilk hissə başa çatarkən İspaniya futbolçularının topa sahib olma faizi 70 idi. Hər halda, bu statistik göstəriciyə əsasən deyə bilərik ki, baş məşqçinin seçimi ilə bağlı əlavə şərhə ehtiyac yoxdur.

Fasilədən sonra İspaniya komandası daha çox risk etməyə başladı. Müdafiəçiləri meydançanın mərkəzinə kimi çıxan komanda əks-hücumlarda yaxalanmağa başladılar. Sözsüz ki, burada fiziki yorğunluq da tədricən özünü göstərirdi. Oyun planını tətbiq etməkdə çətinlik çəkən italyanlar isə daha çox uzun hava ötürmələrinə üstünlük verirdilər. Nəticədə müdafiənin arxasına atılan hər top İspaniya kollektivinin qapısı qarşısında təhlükəli epizodlarla yadda qalırdı. Belə epizodlardan birində İmmobilenin itirdiyi top Kyezanın önünə düşdü. Sonuncu isə bu fürsəti boşa verməyərək matçda hesabı açdı.

Qoldan sonra İspaniyanın məşqçilər korpusu oyun planında dəyişikliklərə getdi. Morata, Moreno və Rodrinin oyuna daxil olması ilə ispanlar hücumda çoxalmağa başladılar. Qarşılaşma boyu müdafiənin mərkəzində ciddi səhvlərə yol verməyən İtaliya millisi 80-ci dəqiqədə ani ötürmə zamanı Moratanı unutdu. Nəticədə qapıçı ilə təkbətək qalan hücumçu vurduğu qolla hesabda tarazlığı bərpa etdi-1:1. Qalan dəqiqələrdə hər iki tərəfin səylərinə baxmayaraq, qol olmadı.

Görüşdə qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə vaxt təyin olundu. Komanda şəkilində hücumlara qoşulan hər iki tərəfdə fiziki yorğunluq özünü göstərməyə başladı və bu səbəbdən geri dönüşlərdə ciddi problem yaranırdı. Beləliklə, əlavə vaxtda da qol olmadı və qalibi müəyyənləşdirmək üçün penalti zərbələri yerinə yetirildi. Penaltilərdə 4:2 hesabı ilə qələbə qazanan İtaliya millisi finala yüksəldi. Bununla da, "Skuadra adzurra" məğlubiyyətsizlik seriyasını 33 matça çatdıraraq İspaniya ilə Braziliyanın bölüşdüyü 35 matçlıq dünya rekorduna daha bir addım yaxınlaşdı.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Kyeza çox xoşbəxtdir

**İtaliya millisinin hücumçusu Federiko Kyeza komandasının "Avro-2020"nin finalına çıxmasını şərh edib.**

O, görüşdən sonra bildirib: "Mən emosiyalarımı sözlərlə ifadə edə bilmirəm. Ağır oyun oldu. İspaniya əla oynadı, amma iyulun 11-də yenidən bu stadiona - finala biz qayıdacağıq. İspaniyanın ulduz oyunçuları var. Biz sona qədər mübarizə apardıq və istəyimizə çatdıq. Lokatelli ilk penaltini vura bilməyəndə sakit idik. Deyirdik ki, qalib gələ bilərik. Bunu da bacardıq".



## UEFA-dan Azərbaycana təşəkkür

**"Avro-2020"nin Bakı Olimpiya Stadionunda keçirilmiş 4 oyunu ilə bağlı UEFA tərəfindən AFFA-ya təşəkkür məktubu daxil olub. Qitə futbol qurumunun tədbirlərin təşkili üzrə baş direktoru Martin Kallenin adından göndərilən məktubda deyilir: "Hörmətli həmkarlar, Bakıda keçirilən 4 oyunun yüksək səviyyədə təşkilinə görə sizi təbrik edirik. Bu, inanılmaz bir uğurdur!**

Ötən bir neçə həftə bu işə cəlb olunan hər kəs üçün çox gərgin keçdi. "Avro-2020" layihəsinə sərf etdiyiniz əməyə görə hər birinizə təşəkkür edirəm. Əzmkar və motivasiyalı insanların bir komanda şəklində birlikdə çalışdığı, ortaq məqsəd və ambisiyalara sahib olduğu halda nələrin əldə oluna biləcəyini nümayiş etdirdiniz.

Mən Bakıda keçirilmiş bir oyunda iştirak etmək şərəfinə nail oldum və işçi heyətindəki atmosferdən, yüksək peşəkarlıq standartlarından çox təsirləndiyimi deyə bilərəm. COVID-19-un son bir neçə ayda yaratdığı qeyri-müəyyənlik fonunda belə, AVRO-2020 oyunlarını həvəslə təşkil etmək əzminiz bariz şəkildə görünürdü. Bunu həmişə - bu gün və bu yaydakı yarışdan hələ çox sonra da xatırlaya və bununla fəxr edə bilərsiniz. Bu müddət ərzində birlikdə çalışdıqdan sonra siz UEFA-nın geniş Avropa ailəsinin ayrılmaz bir hissəsinə çevrildiniz. Ümid edirəm ki, bu layihədə çalışdığınız müddətdə zövq aldınız və turnirin həyəcanlı keçəcəyi şübhə doğurmayan qalan oyunlarını izləməkdən də zövq alacaqsınız. Həm UEFA, həm də öz adımdan bütün gələcək işlərinizdə sizə xoş arzularımı çatdırıram!"

Xatırladaq ki, Bakı Olimpiya Stadionu qrup mərhələsinin Uels - İsveçrə, Türkiyə - Uels və İsveçrə - Türkiyə matçlarına, həmçinin 1/4 final mərhələsinin Çexiya - Danimarka görüşünə evsahibliyi edib.

## Bonuççidən etiraf



İtaliya millisinin müdafiəçisi Leonardo Bonuççi İspaniya komandası barədə müsbət fikirlər səsləndirib.

"Yuventus"un futbolçusu oyundan sonra verdiyi açıqlamada etiraf edib ki, İspaniya ilə görüş karyerasında ən çətin oyun olub: "Bu, indiyə qədər keçirdiyim ən ağır matç idi. İspaniyanı göstərdiyi oyuna görə təbrik edirəm. İtaliya olaraq biz çətin sədləri keçmək bacarığımızı, ürəyimizi və qərarlılığımızı göstərdik. İndi bizim üçün daha bir santimetr qalıb. Bir santimetr... İnanılmaz bir uğura nail olmuşuq, finaldayıq. Kuboku illər sonra yenidən evimizə aparmaq üçün fədakarlığa ehtiyacımız var".

## «Avro-2020»nin ən yaxşıları

**UEFA hazırda davam edən Avropa çempionatının ən yaxşı futbolçularının reytinqini açıqlayıb. Siyahı tərtib edilərkən oyunçuların meydandakı müxtəlif hərəkətləri nəzərə alınıb.**

Siyahıya Portuqaliya millisinin hücumçusu Kriştianu Ronaldu başçılıq edir. Patrik Şik (Çexiya) 2-ci, Yoahim Mehle (Danimarka) 3-cü pillədə qərarlaşıb. UEFA-nın statistikasına görə, Avro-2020-nin ən yaxşı 10 oyunçusu aşağıdakılardır: 1. Kriştianu Ronaldu (Portuqaliya); 2. Patrik Şik (Çexiya); 3. Yoahim Mehle (Danimarka); 4. Marko Verratti (İtaliya); 5. Andrey Yarmolenko (Ukrayna); 6. Robin Qozens (Almaniya); 7. Stiven Suber (İsveçrə); 8. Nikolay Matviyenko (Ukrayna); 9. Rahim Sterlinq (İngiltərə); 10. Cerdan Şakiri (İsveçrə).





## Çakır evə qayıtdı



**"Avro-2020"nin yarımfinal və final oyunları üçün hakim təyinatları açıqlanıb. Türkiyəli referi Cüneyt Çakır yarımfinal və final oyunun heç birinə təyinat almayıb.**

İyulun 6-da keçirilən İtaliya - İspaniya yarımfinalını almaniyalı Feliks Brıx, iyulun 7-də oynanılan digər yarımfinal - İngiltərə - Danimarka görüşünü isə niderlandlı Denni Makkeile idarə edib.

İyulun 11-də olacaq final qarşılaşmasının baş hakimi isə niderlandlı Byörn Kuypers olacaq. Bu, Kuypersin karyerasında ilk Avropa çempionatı finalı kimi tarixə düşəcək.

## Enrike Pedrini İnyesta ilə müqayisə etdi



**İspaniya millisinin baş məşqçisi Luiz Enrike futbolçusu Pedrini tərifləyib.**

Təcrübəli mütəxəssis "Marca"ya açıqlamasında 18 yaşlı yarımmüdafiəçini millinin və "Barselona"nın sabiq futbolçusu Andres İnyesta ilə müqayisə edib: "Pedrinin bu turnirdə necə oynadığını gördünüz? 18 yaşlı bir futbolçunun belə oynadığını heç vaxt görməmişəm. Bu yaşda bu cür performansı Andres İnyestada belə görmədim. Çox çılğın idi".

Xatırladaq ki, İspaniya millisi Avropa çempionatının yarımfinalında İtaliyaya məğlub olaraq mübarizəni dayandırıb. 90 dəqiqə meydanda olan Pedrinin etdiyi 55 ötürməsinin hamısı dəqiq olub.

# AZAL BakıdanTəl-Əvivə uçuşların sayını artırır

**“Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat xidmətinin məlumatına görə Azərbaycan Hava Yolları” aviaşirkəti Bakıdan Təl-Əvivə uçuşların sayını artırır.**



Belə ki, 11 iyul tarixindən başlayaraq həftənin bazar günləri həyata keçiriləcək reyslərlə yanaşı, uçuş cədvəlinə 22 iyul tarixindən hər həftənin cümə axşamı günləri icra olunacaq daha bir reys əlavə ediləcəkdir.

Aviabiletlərin satışı aviaşirkətin www.azal.az rəsmi saytında, həmçinin aviadaşıyıcının akkreditə olunmuş agentliklərində həyata keçirilir.

Daşımaya yalnız mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, İsrail vətəndaşları aşağıdakı sənədləri təqdim etdikdə Azərbaycana səyahət edə bilərlər:

- tam peyvənd olunmaları barədə sertifikat (COVID-19 pasportu) və ya xəstəlikdən sağalmaları barədə arayış;
- uçuşdan əvvəl 72 saat ərzində rəsmiləşdirilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsi barədə arayış.

18 yaşınadək İsrail vətəndaşları Azərbaycana hava nəqliyyatı ilə gəldikdə yalnız PCR testinin neqativ nəticəsi barədə arayış təqdim edə bilərlər. Bir yaşınadək uşaqlar üçün sertifikat və arayışın təqdim edilməsi tələb olunmur.

İsrailə səyahət etməyi planlaşdıran Azərbaycan vətəndaşları İsrail hökumətindən bu ölkənin ərazisinə giriş icazəsi almalıdırlar.

Pandemiya dövründə İsrail ərazisinə giriş qaydaları ilə aviaşirkətin saytında aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz: https://www.azal.az/az/-information/covid-israel

Azərbaycanda COVID-19-a dair testdən keçə biləcəyiniz klinikaların siyahısı aviaşirkətin rəsmi saytında təqdim edilmişdir: https://www.azal.az/az/-information/covid-clinics

Sərnişin Təl-Əvivdən Bakıya səyahət etdiyi zaman COVID-19-a dair testi dövlət tərəfindən akkreditə olunmuş istənilən klinika və ya laboratoriyada verə bilər. PCR testinin neqativ nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması arzuediləndir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

Qeyd olunan marşrutun sərnişinləri COVID-19-a dair testin nəticəsinin uçuşdan əvvəl 72 saat ərzində etibarlılığına əmin olmalıdırlar.

---


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


---

Təkrar

## Azərbaycan Respublikası Mərkəzi Bankı “Banklararası Kart Mərkəzi”nin “Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları”nın (PCI DSS) tələblərinə uyğunluğu üzrə auditin aparılması və PCI DSS sertifikatının alınması və SWIFT üzrə lokal infrastrukturun SWIFT cəmiyyətinin “İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası”nın (CSCF) tələblərinə uyğunluğu üzrə auditin həyata keçirilməsi ilə bağlı açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı aşağıdakı LOT-lar üzrə açıq tender keçirir.

**1-ci LOT üzrə tenderin predmeti:** Mərkəzi Bankın Banklararası Kart Mərkəzi infrastrukturunun “Ödəniş kartı sahəsində təhlükəsizlik standartları şurası” (bundan sonra PCI SSC) tərəfindən təqdim olunan “Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları”nın (Payment Card Industry Data Security Standards) aktual versiyasının (bundan sonra - PCI DSS) tələblərinə uyğunluğu üzrə illik əsasda 4 il müddətində auditin həyata keçirilməsi və müvafiq sertifikatın alınmasıdır.

**2-ci LOT üzrə tenderin predmeti:** Mərkəzi Bankın lokal SWIFT infrastrukturunun SWIFT cəmiyyəti tərəfindən “İstifadəçinin təhlükəsizliyi proqramı” (Customer Security Programme) çərçivəsində (bundan sonra - CSP) təqdim olunan “İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası”nın (Customer Security Controls Framework) hər il yenilənən aktual versiyasının (bundan sonra - CSCF) tələblərinə uyğunluğu üzrə illik əsasda 4 il müddətində auditin həyata keçirilməsidir.

Tender proseduru 10 avqust 2021-ci il saat 15:00-da Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 21 sentyabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (Əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *iddiaçının müvafiq sahədə korporativ müştəriləri və son 2 (iki) il üzrə iş təcrübəsini (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu daxil olmaqla) əks etdirən məlumatlar;*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 09 avqust 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 30 iyul 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

Hər bir LOT üzrə ayrılıqda iddiaçılar iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində vəsait köçürməlidirlər: Azərbaycan Respublikasının Mərkəzi Bankı

**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h: AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**SWIFT BIK: NABZAZ2C.**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER account № AZ25NABZ01701190000000001944, SWIFT BIK: NABZAZ2XXXX.

Xidmətlərin göstərilməsinə başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından Azərbaycan dilində (xarici iddiaçılar həmçinin ingilis dilində) tərtib edilmiş tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Fuad Səbziyev (Ödəniş sistemləri və hesablaşmalar departamentinin əməkdaşı). Telefon: 493-11-22 (177), faks: 493-55-41, elektron poçt ünvanı:fuad_sabziyev@cbar.az.

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrində kommunal-kommunikasiya işlərinin *təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 iyul 2021-ci il saat 18:00-a kimi qəbul olunur. Zərflərin açılışı 29 iyul 2021-ci il saat 15:00-da Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 ünvanda, Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin akt zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Sirac Əliyev, (012) 465-73-48 (daxili: 110).**

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin Pirsaat Qış Otlaqlarının Su Təminatı Sistemlərinin İstismarı İdarəsi tərəfindən “Azərbaycan” qəzetinin 04.05.2021-ci il tarixli nömrəsində və e-tender.gov.az saytında 03.05.2021-ci il tarixdə elan edilmiş “Pirsaat QOSTSİİ MV-1 xəttində 1,4 km məsafədə əsaslı təmir işlərinin satın alınması” üzrə müsabiqədə Tender komissiyasının 14.06.2021-ci il tarixli qərarına əsasən, “Sumqayıt Melioservis İdarəsi” qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Tender elanı “Azərbaycan” qəzetinin 23.02.2021-ci il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən mərkəzi ofisində və Bakı şəhəri, Ə.Əliyev küçəsi, 10 ünvanında yerləşən inzibati binasında istismar olunan lift qurğularına texniki xidmətin, hidravlik liftin təmiri məqsədilə işlərin və müvafiq sahəyə uyğun zəruri ehtiyat hissələrinin satın alınması üzrə açıq tender ilə əlaqədar Tender komissiyasının 23.06.2021-ci il tarixli qərarına əsasən, “XƏZƏRLİFTSERVİS” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 01 iyul 2021-ci il tarixli nömrəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən İsmayıllı rayonu, “Lahıc” Dövlət Tarix-Mədəniyyət Qoruğunda yerləşən 5 memarlıq abidəsində bərpa işlərinin satın alınması məqsədilə dərc edilmiş, eləcə də **www.etender.gov.az** və **www.tourism.gov.az** veb-səhifələrində yerləşdirilmiş açıq tender üçün tender təklifi və təklifin bank təminatı iddiaçıların müraciətinə əsasən 17 iyul 2021-ci il saat 18:00-a, təkliflərin açılışı isə 22 iyul 2021-ci il saat 15:00-a dəyişdirilmişdir.

***Tender komissiyası***

---

## Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi Şəxs “Promo materiallarının” satın alınması üçün *kotirovka sorğusu elan edir*

Tender iştirakçıları öz qiymət təkliflərini 27 iyul 2021-ci il saat 12:00-a kimi, İzmir küç., 8, “Hyatt Tower” III ünvanına təqdim edə bilərlər.

Qiymət təklifləri 28 aprel 2021-ci ildə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün (012) 599-08-28 nömrəli telefonla əlaqələndirici şəxs Əhədov Pərviz Mikayıl oğluna müraciət etmək olar.

***Tender komissiyası***

---

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Azərbaycan Dövlət Dəniz Akademiyası akademiyanın tələbələri üçün geyim formalarının satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatları əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyul 2021-ci il saat 15:30-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000,**
**Zərifə Əliyeva küç., 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-39-47, daxili: 3042.**

***Tender komissiyası***

---

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “Baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqlarla iş mərkəzi (Gəncə, Şirvan, Ağcabədi şəhər və rayonları üzrə)” adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, “Çinar Park” biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 05 avqust 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 06 avqust 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5030)**

***Müsabiqə komissiyası***

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Lazım Quliyev Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin rəhbərliyi və kollektivi iş yoldaşları Gülal Gülalova nənəsi

**SƏKİNƏ ƏHMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 3890
Sifariş 1217
Qiyməti 40 qəpik